**Birjada**

səh. 588. “susinin”: bu sözə məna vermək mümkün olmadı.

**Azərbaycanda**

səh. 590. “bir matəmzara döndərən”: qəzetdə “matəmzara” yerinə “matəmzədə” getmişdir.

“Anan ke xakra benəzər kimiya konənd / Aya bovəd ke quşeye çeşmi be ma konənd”: “Onlar ki, baxışları ilə torpağı tutiya edirlər / Olarmı gözlərinin bir qırağı ilə bizə baxsınlar?” (farsca, beyt Hafizindir)

səh. 591. “zilhiccətül-haram ayı”: hicri təqvimin axırıncı ayı, həcc və Qurban bayramı ayı.

**Teatro-musiqi**

səh. 592. “ərbəin”: İmam Hüseynin şəhid edilməsinin 40-cı günü.





**Cümə axşamı, 30 oktyabr 1919-cu il, nömrə 309**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 5 səfərül-müzəffər sənə 1338. 30 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**ELAN**

1919 sənə oktyabrın 30-da pəncşənbə [cümə axşamı] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-311*

**ELAN**
**Kompaniya “Azərbaycan”**
**Komissioner həmlü nəqli-İran**
**[İran yükdaşıma komissioneri]**

Batumda yeni güşad edilən [açılan] kompaniyamız əmvali-ticariyyə [ticarət malları] alır və satır; hər növ əşyanın idxal və ixrac müamilatını dəröhdə edir [əməliyyatlarını öhdəsinə götürür]. Müraciət edəcək müştərilərə böyük təshilat [köməklik] göstərir.

Adres: Batum, Naberejni, nömrə 12. Telefon 109.

Kompaniya “Azərbaycan”.

*11489*

**ELAN**
**“Müsavat” firqəsi Bakı komitəsindən**

Bakıda mövcud yerli və kənardan gəlmiş müsavatçılara ixtar olunur [xəbərdarlıq edilir] ki, Komitənin Dum meydanında (Dumski ploşadda) Haşımovun evində vaqe idarəsinə müraciətlə üzvlük vərəqələrini təzələtsinlər. Əks surətdə firqə qurultayına mürəxxəslər [nümayəndələr] seçəcək məhəlli firqə ictimasında [yerli partiya yığıncağında] iştirak etmək haqqını itirmiş olurlar.

Üzvlükləri təzələmək və ələlümum firqəyə yazılmaq üçün idarə saat 9-dan 2-yə qədər və 6-dan 8-ə qədər açıqdır.

*T-306*

**SİRK “MODERN”**

Pəncşənbə günü oktyabrın 30-nda 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qara Maska – Gənc Əli.

2-nci: Jan-de-Kolon – Raqenbaum.

3-ncü: Staroşvili – Kalişeviç.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*11494*

* * *

Aşağıda zikr olunan qəzetələrin nəşriyyatı həmin noyabr ayının 1-dən qəzetə nüsxəsinin 3 rubləyə qədər artırılmasına məcbur olmuşlar: "Azərbaycan", "Qolos Rossii", "Bakinets", "Bakinskoye slovo" və "Russki den".

* * *

**DÖVLƏT TEATROSU**
**Azərbaycan Dövləti Teatro heyəti**
Cümə günü təşrini-əvvəlin
(oktyabrın) 31-ndə axşam
Dövlət Teatrosunda
mövqeyi-tamaşaya qoyulacaqdır
**"Əbülüla"**
Həsən Bədrəddin və Rifatın əsəri
faciə, 5 pərdədə
Tamaşa başlanacaq axşam
saat 8 tamamda.
Biletler teatrın kassasında
satılmaqdadır.
Rejissor: A. A. İvanov.
Müavini-rejissor: Hacıbaba Şərifov.
Gələcək tamaşa səşənbə günü
təşrini-saninin (noyabrın) 4-ndə
"Yezin ibn Müaviyə".
Mövqeyi-tamaşaya
qoyulmaq üçün hazırlanır:
"Trablis müharibəsi", "Dövlətibisəmər" və "Qəzavat".
Dövləti Teatro heyəti vəkili:
M[əhəmməd] Ə[li] Sidqi.

*T-310*

## ƏSASSIZ TƏLƏB

Dabravol komandası – dünkü nömrəmizdə yazıldığı üzrə – "tələb" edir ki, Bəhri-Xəzərdə Azərbaycanın nə ticarət və nə də hərbi gəmiləri olmasın. Bu tələbə bir əsas olmaq üzrə 1828 sənəsində Rusiya ilə İran arasında əqd edilmiş [imzalanmış] olan Türkmənçay müahidəsindən [müqaviləsindən] bəhs edilir. Məlum olduğu üzrə, bu müahidəyə görə Xəzər dənizi İran diplomatlarının rəyincə heç bir vecə gəlməyən "abi-şor" [duzlu su] olduğuna görə, tamamilə rus hakimiyyəti təhtinə [altına] keçib, istər ticarət, istər hərbi gəmilər saxlamağa İranın haqq və səlahiyyəti olmadı.

Əlbəttə, müstəqil Azərbaycana heç bir dəxli və rəbti [bağı] olmayan Türkmənçay müahidəsi dabrovolların tələbinə haqq verə biləcək bir əsas təşkil edəmməz. Bu müahidə bəhsi bir bəhanədir və bu bəhanə ilə verilən tələb dəxi Azərbaycan hüququna təcavüzdən ibarət bir hərəkətdir.

İran-rus müahidələri əsas tutulmaq üzrə Azərbaycana tələblər vermək caiz görülərsə, o halda Türkmənçay müahidəsi ilə Xəzər dənizindən əl çəkməyə məcbur olan Azərbaycan, Gülüstan müahidəsi ilə də Qarabağ, Gəncə, Bakı, Şirvan və bir kəlmə tamam Azərbaycan torpağından əl götürməyə, yəni öz-özünə yox olmağa vadar olacaqdır.

Dabravol komandasının bu hərəkəti ola bilər ki, Denikinin Azərbaycan haqqındakı qəsdinin qövldən feilə [sözdən işə] çıxarılmaq yolunda birinci iqdamı [addımı] və "Azərbaycan səfəri"nin ibtida və başlanğıcıdır. Bəhanənin boş və əsassızlığı bu mülahizəni təbid edən [meydana gətirən] keyfiyyətlərdən hesab edilməlidir: hər bir haqsız təərrüz [hücum] və təcavüzün bəhanəsi bərmötad [adəti üzərə] boş və əsassız olar. Özünü güclü və müqabil tərəfi gücsüz hesab edənlər təərrüzlərinə bir müqəddimə olmaq üzrə ortaya bimənа və məntiqsiz bəhanələr atarlar.

Fəqət bu qürur sahiblərinin əksər övqat [çox vaxt] elmi-hesabda xam və naşı olduqları, acı peşmançılıqları mövcib olan [peşmançılıqlara səbəb olan] səhv və xətaları ilə isbat edilib, iş, sahibi-qürurun heç də gözləmədiyi və istəmədiyi bir vəziyyətə dönməklə, başqa nəticələr verər.

Denikinin Azərbaycanı nə hesab etdiyini bilməyirik, ancaq bunu bilirik ki, Azərbaycan Cümhuriyyəti öz dənizini "abi-şor" əдd [hesab] edəcək dərəcədə kutahbin [dar görüşlü] olmamaqla bərabər, böylə bir qərar hökmünə məcbur olacaq halda dəxi deyildir. Azərbaycan öz hüququnu müdafiə yolunda heç bir şeydən çəkinməyəcəkdir.

Azərbaycan üçün dəniz məsələsi can məsələsidir. Bu məsələyə əl vurmaq Azərbaycanın canına toxunmaqdır. Azərbaycan Bakı dənizində hərbi gəmilər saxlamaqla heç kəsi qorxutmaq və heç bir kəsin yerinə təərrüz etmək fikrində deyildir. Onun fikri özünü xarici imperialist və qasiblər [qəsbkarlar] tərəfindən müdafiəyə hazır bir halda durmaqdır. Azərbaycanın özgələr yerinə göz dikdiyini heç kəs xəyalına belə gətirməz. Halbuki özgələrin Azərbaycan torpağı haqqındakı təcavüzkaranə fikri cümləcə məlumdur. Böylə olduğu sırada, özünü qurudan mühafizə etmək Azərbaycana borc olduğu kimi, dəniz tərəfindən dəxi müdafiə və mühafizə yollarını əlində saxlamağa var qüvvəsi ilə səy və qeyrət edəcəkdir.

Azərbaycan Cümhuriyyəti demək olar ki, artıq beynəlmiləl bir əhəmiyyəti haiz olan [daşıyan] bir məsələ surətinə keçmişdir. Bu nöqteyi-nəzərdən bolşeviklıklə müharibə üçün denikinlərə müzahirət [köməklik] göstərən Antanta və baxüsus ingilis məhafili-rəsmiyyəsi [rəsmi dairələri] və əfkari-ümumiyyəsi [ictimaiyyəti] Denikinin Azərbaycan qəsdinə müvafiqət [həmrəylik] nəzərilə baxa bilməz və bu təərrüzə qarşı ruyi-riza [razılıq] göstərən Denikin Antanta müzahirətindən [köməyindən] məhrum edilərsə, pulsuz və ləvazimati-hərbiyyəsiz qalmaqla heç bir şeyə qadir olammaz. Fərzi-mühal olaraq [mümkün olmamaqla birgə, fərz edək ki], Antanta bu məsələyə qarşı laqeyd qalsa belə, Azərbaycanın öz hüququnu müdafiə etmək üçün ixtiyarında olan vəsilələri [yolları, imkanları] və həqiqi vasitələri çoxdur.

*Ü. Hacıbəyli*

## LƏNKƏRANA DAİR

Azərbaycanın ən fəlakətzədə və zərərdidə bir cüzü [hissəsi] də, heç şübhəsiz ki, Lənkəran – o, minlərcə can bahasına ədadan istixlas [düşməndən xilas] edilmiş sevgili məmləkətdir.

Lənkəran ənud [inadcıl] düşmənin layənqəte [arasıkəsilməz] sövlət [şiddətli hücum] və zərbələri altında aylarca paytaxtımızdan ayrılmış olaraq, həyat və məmat ilə [ölüm-qalımla] mübarizə eylərkən, bütün Azərbaycan türklüyü də milli və vətəni həyəcanlarla mütəhəssis [vətənsevərlik hissləriylə duyğulanmaqda] və mütəəssir olmaqda idi.

Lənkəran macəracu [avantürist] ruslar və bolşeviklərin idarəsində o dərəcədə

düçari-zülüm və qəhr olmuşdu ki, oradan yüksələn hər fəryad və fəğan şimşək sürəti ilə qəlblərimizi yaralayır, ruhumuzu təzlim edir [ruhumuzu qaraldır], fikirlərimizi tədhiş eyləyirdi [ürküdür, qorxuya salırdı].

Lənkəran düşmən ayaqları altında əzildi, üzüldü.

Fəqət bu təzəllüm [çəkilən zülümlər], bu cəfa lənkəranlı vətəndaş və millətdaşlarımızda vətəni, milli hiss və fikirlərin doğmasına, artmasına amil oldu. Lənkəran maddətən düçari-qəhr oldu isə, mənən də məzhəri-fəlah və nicat oldu [xoşbəxtliyə və qurtuluşa nail oldu].

Üç-dörd ay əvvəl sevgili məmləkətimiz qəhrəman və şəci [şücaətli] əsgərlərimizin hücumi-qəhharanəsi [düşməni qəhr edən hücumu] ilə Ana Vətənə, Azərbaycana feilən iltihaq etdi [qovuşdu, birləşdi]. Hər zaman hər vəsilə [vasitə] ilə təzəllüm [şikayət] etdiyimiz, daima bir mövcudiyyət məsələsi kimi pişgahımızda [qarşımızda] bulundurduğumuz Lənkəran müqəddəratı artıq həll edilmişdi. O gündən bu günə qədər müstərih [rahat] nəfəs almağa başladıq. Vətəni və milli bir səadət hiss etdik.

Təbii, bu səadətimizi tətvic edəcək [taclandıracaq, ucaldacaq] və əsl görüləcək iş – bundan sonra o məmləkətin hüsnsurətlə idarəsi məsələsi idi.

Hökumətimizin aqilanə tədbirləri sayəsində idareyi-mülkiyyə cəhəti də qismən təmin edilib, bəzi iqdamata [təşəbbüslərə, addımlara] da girişildi.

Hökumət Lənkəranı bir general-qubernatorluq halına qəlb etdi [saldı]. Çünki gərək hərbi vəziyyəti və gərəksə siyasi mövqeyi, inzibat və idarə cəhəti ilə böylə ali bir məmurluğun təəssüsünü [yaradılmasını] tələb edirdi.

Bu az zaman zərfində idarə, orada olduqca kəsbi-intizam etdiyi [kimi] [qaydasına düşdüyü kimi], hökumət ilə camaat arasında da yaxşı münasibat, bir növ, hüsula gəlmişdir.

Camaat hökumətə qarşı hər dürlü vəzifəsini ifaya şitaban olmaqdadır [tələsməkdədir]. Cavanlar da böyük bir həvəs və xahişlə əsgərliyə qeyd edilməkdədir.

Fəqət bu son günlərdə Lənkəranda idareyi-mülkiyyə cəhəti ilə bəzi uyğunsuzluqlar və sui-istemallar [sui-istifadələr] vaqe olmuşdur ki, ciddən calibi-diqqətdir [diqqət çəkməkdədir].

Lənkəran müxbirlərimizin məktublarından anlaşılır ki, qətl və cinayət kimi hadisələr həman hər gün təkərrür etməkdədir [təkrarlanmaqdadır]. Mövcibiqeyd [qeyd edilməyə layiq] bir keyfiyyətdir ki, bu cinayət və qitalların da [qətllərin də] əksərisi keçmiş bolşevik zamanına aid kin və intiqam hisslərindən təvəllüd eyləyir [meydana gəlir].

Digər tərəfdən də, mülkiyyə məmurları arasında sui-istemallar başlamışdır. Rüşvət alanlar, şunun-bunun mənfəəti naminə hərəkət edənlər baş vermişdir.

Bu kimi əhvala qarşı mütəəssif, mütələhhif olmamaq [təəssüflənməmək və kədərlənməmək] mümkün deyildir.

Qeyri-təbii və keyfi [qayda-qanunsuz] bir bolşevik-erməni intriqaları idarəsi altında bir çox zaman yaşayan lənkəranlı millətdaş və vətəndaşlarımız bu kimi əhvaldan dolayı mütəəssir ola bilərlərsə də, yeniliyin, təhəvvülatın [dəyişikliklərin] nəticəsi olaraq bəzi xətaların müvəqqəti olduğuna şübhə etməmələri lazım gəlir.





Lənkəranda möhkəm və ciddi bir idarənin təsisi üçün, təbii, hökumət heç bir şeyi əsirgəməməli, bilxassə [xüsusilə] təcrübədidə [təcrübəli], müstəqim [düzgün] və namuslu məmurları oraya göndərməlidir.

Rüşvətxor məmurlar daha şimdidən Lənkəranda baş verərlərsə, tədricən daireyi-irtişalarını [rüşvət dairələrini] artdıra bilərlər.

Rüşvətxor məmurların həbsi və əzl olunaraq [qovularaq] kənar edilmələri lazımdır və yerlərinə də yeni bir məmləkət olduğu üçün gənc, məlumatlı və bir məfkurə sahibi məmurlar və əgər mümkün olarsa, studentlərimizdən də bir qismi təyin olunmalıdır.

Lənkəranın hökumət icraatından gözlədiyi şey, ən ziyadə onları əxlaq və mənəviyyat etibarilə cəlb edə biləcək, hüsnniyyət sahibi və ərbabi-əzm [əzmkar] məmurlardır. Böylə məmurlar isə cavanlarımız arasında daha ziyadə tapılar, cavanlarımızın xülus və fikir səbatından [sadiqlik və ideoloji dönməzliyindən] daha da istifadə olunar.

Digər tərəfdən, Lənkəranda xanlarla kəndçilər arasındakı torpaq məsələsini də ədl və həqqaniyyətlə [haqq və ədalətə uyğun olaraq], hər iki tərəfi məmnun və razı edə biləcək bir surətdə həll etməli, hökuməti [hökumətə məxsus] bir tədbirlə ara yerdəki sui-təfəhhümü [yanlış anlaşılmanı] qaldırmalıdır.

Xəbər aldığımıza görə, hökumət və "Müsavat" fraksiyonu bu barədə lazım gələn təşəbbüsata girişib, yaxın zamanda bu məsələnin təsviyəsi [aradan qaldırılması] mümkün ola biləcəkdir.

Təbiidir ki, hüsn-niyyət və əzmi-qəti olduqdan sonra, camaatla hökumət arasında hər zaman anlaşılacaq bir dil bulunar.

Hökumət Lənkəranın bilümum [bütün] məsələləri ilə bizim ətf etdiyimiz [verdiyimiz] əhəmiyyət qədər etina etməkdə olmasıyla bərabər, Mülkiyyə Baş Müfəttişliyi bir əlini də bu yeni idarəmizə keçən məmləkətə uzatsa, orada da bir təthirata [təmizliyə] girişsə, lənkəranlı millətdaşlarımız üçün xeyirli və mövcibi-təqdir [təqdirəlayiq] bir iş görmüş olar.

Hər halda, gec olsun da, güc olmasın. Tək Lənkəranda da Mülkiyyə İdarəmiz təbii və həqiqi bir məcraya [yola] girməklə, əhalisini məmnun qılsın.

*Ə[hməd] H[əmdi]*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 23 təşrini-əvvəl iclası

İclas doktor Həsən bəy Ağayevin sədarəti ilə açılaraq, ruznameyi-müzakirat [müzakirə gündəliyi] elan edilir.

Azərbaycan Dövləti Bankın Gəncədə şöbəsini açmaq layiheyi-qanuniyyəsi [qanun layihəsi] uzun müzakirədən sonra qəbul edilir.

İkinci məsələ olaraq, mətbuat nizamnaməsinin müzakirəsinə keçilir. Rüstəmbəyli Şəfi bəy məruzəçi sifəti ilə məruzədə bulunur.

**Şəfi bəy** - Hər yerdə qaydadır ki, mətbuat üçün müəyyən bir qanun olar. Böylə ki, mətbuat, qanundan kənar bir şey

dərc etsə, ona məhkəmə üzəri ilə baxılsın. Çünki mətbuatda bəzən cinayəti mövcib [cinayətə səbəb] ola biləcək şeylərin dərc və nəşr edilməsi hər yerdə mümkün ola biləcək şeylərdəndir. Buna görə bir qanun, nizamnamə olmalıdır ki, cinayət müəyyən olandan sonra onun əsası ilə məhkəmə, işi röyət edə [nəzərdən keçirə] bilsin. Bu bir əsasdır ki, mətbuat gərək hür və sərbəst olsun, cinayətə məhkəmədə baxılsın. Bu layihə də o prinsip ilə tərtib olunmuşdur.

Bu layihə Daxiliyyə Nəzarətindən Parlamana gəlmiş, komisyonda ona baxılmışdır. Bu layihənin əsası üzrə hər bir azərbaycanlının ixtiyarı var ki, məmləkətdə qəzetə çıxarsın, kitab təlif etsin və mətbəə açsın. Bu kimi işlər üçün heç bir yerdən izin və icazə almaq lazım deyildir.

İkinci, mətbuat təb [çap] və nəşr olunandan sonra, onda qanundan kənar sui-istemallar [sui-istifadələr], cinayət olarsa, onlara qanun üzrə məhkəmə baxacaqdır. Qeyri kəslərin, yəni administrasiyanın ixtiyarı yoxdur ki, məhkəmədən kənar, qəzetə yazanı cəzalandırsın.

Üçüncü budur ki, bu kimi işlər üçün bir təşkilat olmalıdır ki, qəzetələrdə yazılan qeyri-qanuni şeyləri müəyyən edib məhkəməyə versin. Bu vəzifə də layihə əsası ilə qubernatorlara, polismeysterlərə, naçalniklərə tövsiyə edilir ki, mətbuatda qeyri-qanuni bir şey görsələr müddəiyi-ümumiyə [prokurora] göndərsinlər. Müddəiyi-ümumi əgər o işin cinayət olduğunu taparsa, məhkəmə qanunda olan maddələr mövcibincə [əsasında], həman işi məhkəməyə verər, məsulunu məhkəməyə cəlb eylər.

Bununla bərabər, bir də Mətbuat Müfəttişliyi təşkil edilir. Yəni bir mətbuat inspektoru olur ki, o da məmləkətdə nəşr olunan kitab və qəzetələrə nəzarət edir. Nəşr olunan risalə və məcmuələrin neçə nüsxəsini alıb onları oxuyur, ona diqqət edir.

Bu, cinayəti təyin edəcək "nadzor" məsələsi komisyonda bir çox müzakirələrə səbəb oldu. Bir neçə mülahizəyə görə lazım bilindi ki, bu iş bir təşkilatın və yaxud bir adamın əlində olsun. Çünki administrasiyanın vaxtı və imkanı olmaz ki, məmləkət daxilində çıxan bütün qəzetələrə və kitablara baxıb nəzarət etməklə cinayəti təyin edə bilsin, məhkəməyə versin.

İkinci nöqteyi-nəzər də budur ki, mətbuata öylə bir adam baxıb nəzarət etməlidir ki, mətbuat qanunları ilə aşina olmaqla bərabər, o xüsusda hərtərəfli məlumatı olsun və müəyyən edə bilsin ki, qarşısındakı yazıda cinayət, şəxsi və dini təcavüzlər varmı və ya yoxdur. Bunları müəyyən edib fikir verə bilsin və bilsin ki, hansı cinayəti müddəiyi-ümumiyə göndərmək lazımdır.

Ona görə bu işlərin hamısı administrasiyadan alınıb inspektora verilməlidir. Yalnız inspektor mətbuata yaxşı baxa bilər.

Burada bir etiraz varid [daxil] ola bilər ki, mərkəzdə inspektor olarkən, vilayətlərdə nasıl olsun?

Əvvəla, vilayətlərdə o qədər mətbuatımız yoxdur. Hərgah vilayətlərdə mətbuat olarsa, getdikcə artarsa, o zaman vilayət inspektoru təyin edilməklə bu məsələ həll edilə bilər. Və yaxud müvəqqətən bu iş vilayətlərdə administrasiya ixtiyarına verilər ki, o, hökuməti dairəsində nəşr olunan mətbuata nəzarət və diqqət etməklə, əgər bir cinayətə təsadüf edərsə, onu müddəiyi-ümumiyə göndərər.

Bunlardan əlavə, layihədə başqa maddələr də var ki, onlara nəzərən mətbuatı yalnız inspektor təqib etməyib, hər bir şəxsin ixtiyarı vardır ki, mətbuatda xilafi-qanun [qanuna zidd] bir şey tapsa, müddəiyi-ümumiyə tezliklə xəbər versin. Sonra qəzetə naşirləri qəzetə çıxan kimi 12 nüsxə inspektora və yaxud bu işə baxan administrasiyaya göndərməlidir. Qanunda bir də deyilir ki, hankı şəxsin mətbəə açmaya ixtiyarı vardır. Ta bu vasitə ilə kimin nərədə mətbəəsi olduğu müəyyən edilsin. Böylə bir cinayət vüqusunda həman şəxs özü tapılmasa, mətbəənin nərədə olduğu məlum olsun.

Bunlar əski mətbuat nizamnaməsində olan şərtlər və maddələrdir ki, bəlkə indi heç lazım olmadı.

Sonra qanunda deyilir ki, qəzetə müdiri kim ola bilər. Qəzetə müdiri olmağa Azərbaycanda olan hər bir vətəndaşın ixtiyarı var.

Bundan sonra, inspektorun ixtiyarı var ki, mətbəələrin kitabları üstə nəzəri olsun. Statistika nöqteyi-nəzəri ilə hər kəs qəzetə verirsə, yeddi gün əvvəl polisəyə məlum etməlidir, polisə o şəxsin qəzetə çıxarmaq haqqına malik olub-olmadığını təhqiq edə bilsin. Başqa heç bir kəsə mümaniət [maneçilik] yoxdur.

Sonra bir də ştata var. İş çox az olduğundan ştat azdır. Komisyon bu ştatı artırdı. Müdirə müavin verdi. Habelə dəftərxana qulluqçularını da artırdı.

Qanun layihəsi böylədir. *(oxuyur)*

Amma komisyonun nöqteyi-nəzərindən böylə olmalıdır. *(oxuyur)*

Komisyon böylə təshihlə qəbul edib Parlamandan qəbul edilməsini rica edir.

**Ağamalıoğlu** (Hümmət) - Bu qanun layihəsi ki, 15 dəqiqəyə oxuyub qurtardılar, nəzərdə ufaq bir şey gəlir. Lakin mənim zənnimcə bu bir böyük qanundur ki, bunun üstə çox danışmaq lazım gəlir, – deyib, vaqiən [doğrudan da] çox danışır və qanunun bilkülliyyə [tamamən] əleyhində olduğunu bildirir.

**Müseyib bəy Axcanov** (Müsavat) - Səməd ağa cənabları məruzəçi Şəfi bəyə dediyi sözlər yalnız uzun danışmaqdan ibarət idi. O, Senzor Qanunu barəsində uzun-uzadıya danışdısa da, lakin Mətbuat Qanunu barəsində bir söz demədi. Ağamalıoğlu sual edir ki, hökumətin əleyhinə hankı sözlər yazılmışdır ki, mətbuat üzərində qanun qoymaq istəyirsiniz? Əgər bugünkü "Qolos Rossii" qəzetəsində olan provokasiyanı oxusa idiniz görərdiniz ki, mətbuatda nələr yazılır. Qubernator və jandarmlar buna mane olmayırlar. Onlar ancaq böylə xəbərlərin olduğunu məhkəməyə bildirirlər. Məhkəmə idarəsi də ona baxar, əgər qanuna müğayir [zidd] bir şey görmüş olsalar, tənbeh edərlər. Bunun üçün mən təklif edərdim ki, bu qanun layihəsi qəbul edilsin.

**Əbilov** (Sosialist) - Burada oturan firqələrin hamısı azadiyi-mətbuat [mətbuat azadlığı] tərəfdarıdırlar. Əgər bu qanunda azadiyi-mətbuat əleyhinə bir şey varsa, gərək heç kəs bunun tərəfdarı olmasın. Bu gün "Qolos Rossii" qəzetəsində provokasiyalar nəşr olunursa, ona başqa vasitələrlə cəza vermək mümkündür.

Gürcüstanda olduğu kimi, fövqəladə vaxtlarda fövqəladə qanunlar ola bilər. Bu Mətbuat Qanunu isə fövqəladə zaman üçün deyildir.

Əgər mətbuatda bir cinayət olarsa, qanunun bu barədə olan maddələrinə görə məhkəməyə cəlb edilə bilər. Bu nizamnamə isə ondan büsbütün başqadır. Burada mətbuatda kimlərin iştirak etməyə ixtiyarı olub-olmadığı təyin edilir. Bunun üçün bu nizamnaməni nəzərdən keçirib onu müzakirə etməliyiz.

Mən öylə bilirəm ki, bu nizamnamə mətbuat azadəliyinə böyük mümaniətlər [maneələr] təşkil edirlər. Bu nizamnamə mətbuat işlərinin qarşısına sədd çəkir. Birinci maddədə deyilir ki, Azərbaycanda olan hər vətəndaş mətbəə aça bilər, kitab və qəzetə nəşr edə bilər. Lakin 11-ci maddədə isə deyilir, qəzetə verən gərək yeddi gün əvvəl xəbər versin. Ərizə verdikdən yeddi gün sonra ancaq istədiyi qəzetəni çıxara bilər.

Deyirlər ki, qəzetə verən adamın şəxsiyyətini bilmək üçündür. Yəni qəzetə verən adam təhti-məsuliyyətdə [məsuliyyət altında] olmuşmu və ya düz və doğru adammıdır? Deməli, uyezd naçalniki o adama baxacaq, onun düz və doğru olduğunu təyin edəcəkdir. Əgər 1907-ci ildə siyasi işdə müttəhim edilmişsə, onun qəzetə çıxarmaya ixtiyarı olmayacaqdır. Bu, mətbuatın əleyhinə sənəddir. 11-ci maddə ilə birinci maddə arasında olan ziddiyyət burada aşkar görülür. Birinci maddədə deyilir ki, icazə lazım deyil. 11-ci maddədə yeddi gün vaxt təyin edilib deyilir, şərait müvafiq olmazsa qəzetə çıxara bilməz.

Bir də deyilir ki, qəzetə verən şəxs gərək savadlı olsun. Savadlı olmaq cürbəcürdür. Görək uyezd naçalniki bu sözü nasıl başa düşür. Bir savadlı var ki, o ancaq adını yaza bilər. Birisi də var ki, qəzetə çıxara biləcək mahiyyətdədir. Qədim Nikolay zamanında da qəzetə çıxarmaq olmayırdı, ona görə bir bisavad fəhlə adından ərizə verib onu müdiri-məsul edirdilər. Qəzetəni isə idarə edən başqası olurdu. Çünki cinayət qəzetənin içində olar, müdirin cibində və ya başında olmaz.

Bununla bərabər, ola bilər ki, keçmişdə etdiyim bir günahdan dolayı hüquq və ixtiyarım əlimdən alınmış, indi isə tövbə edib qəzetə verirəm. Hərgah verdiyim qəzetədə qanuna müğayir bir şey olarsa, lazım gələn cəza verilər. Daha bu kimi mümaniətlərə ehtiyac yoxdur.

Bu qanunlar mətbuatın sərbəstliyinə mümaniət törədir. Bu qanunda bir tərəfdən mətbuata cəza verilir, digər tərəfdən, əsasən mətbuat qarşısına sədd çəkilir.

Burada 14-cü maddədə müdiri-məsulun kim ola biləcəyi söylənir ki, gərək müdir savadlı olsun, həddi-büluğa çatsın. Bu bir mümaniətdir ki, onunla uyezdni naçalniklərə və qubernatorlara ixtiyarlar veriləcəkdir. Mən qəzetə verirəm, hamısı oxuyur. Müqəssirəmsə, tutub məni məhkəməyə verərlər. Siyasi nöqteyinəzərdən deyirəm. Heç bir qəzetə yazmayacaq ki, gedib oğurluq ediniz və yaxud adam öldürünüz, yazacaqlar ki, hökumət böylə yapmış və yaxud filan qanunsuz iş görmüşdür. Bunları nəzərə almalıdır.

Mətbuata şüru etmədən [başlamadan] onun qarşısına bir sədd çəkməyə görə deyiriz, bu qanuna ehtiyac yoxdur, hər şəxsin ixtiyarı var istədiyi qəzetəni versin.





**TELEQRAF XƏBƏRLƏRİ**

*Bolşevik xəbərləri*

*27 təşrini-əvvəl*

**Hərbi əməliyyat**

Fin boğazı səvahili [sahilləri] dairəsində bizim Qırmızı hissələrimiz kəskin və şiddətli bir zərbədən sonra 10 fərsəx irəliləyib, Krasnı Selonu və ondan cənub-şərq və cənub-qərbə olan bir neçə kənd tərəfimizdən işğal edilmişdir. Düşmənin təqibi davam edir.

Luj dairəsində tərəfimizdən Zaşaspa mövqifi [stansiyası] işğal edilmişdir.

Sevsk dairəsində şiddətli müharibələr davam etməkdədir. Müvəffəqiyyətlə irəli hərəkət edən qoşunlarımız Dimetrovkaya yaxınlaşmışlardır.

Dimetrovsk dairəsində - Bizim hissələrimiz vuruşma ilə Dimetrovsk şəhərini işğal etməyə müvəffəq olmuşlardır.

Orlov dairəsində heç bir təbəddülat [dəyişiklik] yoxdur.

Yels dairəsində - Yelsin şərq tərəfində şiddətli vuruşmalar davam edir.

Voronej dairəsində - Hissələrimiz Voronejdən cənuba olan Don üzərinə yürüşlərində davam edir.

Bobrov dairəsi - Talava mövqifindən şimala tərəf vuruşmalar vardır.

Novoxopyorsk dairəsində - Düşmən tərəfimizidən Xopyor çayının sağ kənarına atılmış və Mixaylovsk mövqifi dəxi zəbt edilmişdir.

Tenikin mövqifi dairəsində müvəffəqiyyətli yürüşümüz kəsbi-dairə etməkdədir [genişlənməkdədir].

Ust-Medveditski dairəsində Medveditsa və Qumenka çayları arasında olan vuruşmada tərəfimizdən əsir, 7 mitralyoz və bir çox qənaim [qənimətlər] alınmışdır.

Petropavlovsk dairəsində - Bizim hissələrimiz Petropavlovskun 70 fərsəx qərbindədirlər. Simbir[sk] dəmiryolu şimalında olan vuruşmalarda bir neçə yüz əsir, üç mitralyoz əlimizə keçmişdir.

Yalutor[ovsk] dairəsində yürüşümüz davam edir. Əsir və mitralyoz alınmışdır.

* * *

Varşava - Lehistan [Polşa] qəzetələri almaniyalılarla mübarizədə Latviyaya hərbi müavinətdə bulunmağı ciddi surətdə təklif edirlər. Siyasi dairələrdə almaniyalılara Latviyada yerləşdirilmək imkanı verilərsə, Lehistan üzərinə təərrüz [hücum] edəcəyinə inanırlar.

Beloostrov - "Karyalaynen-Aamulehti" qəzetəsi Finlandiyada olan mütləqiyyət hərəkətlərindən dolayı həyəcandadır. Finlandiyada mütləqiyyət tərəfdarı olan mətbuat dövlət idarəsinin təbdili [dəyişdirilməsi] və dövlətin qəsb edilməsi üçün təşviqatda bulunur. Qəzetə ən sol və mürtəce sağlar əleyhinə ciddi tədabir ittixazını [tədbirlər görülməsini] tələb edir.

Yenə həman qəzetə baş məqaləsində yazır:

*"Sağ tərəf dairələri Yudeniç müvəffəqiyyətini artıraraq Petroqradın alınması şayiəsini nəşr edirlər [yayırlar]. Böylə şayiələri ehtikar və Seym tərəfindən Şura Rusiyanın etdiyi sülh təklifinin rədd edilməsi məqsədilə nəşr edirlər."*

Qəzetə Yudeniç müvəffəqiyyətlərini şübhəli hesab edir:

“Bolşeviklər bu qədər asancasına Petroqraddan əl götürməzlər. Bununla bərabər, Şimal-Qərb hökuməti Parisdə olan Rusiya nümayəndəsi ilə düşmənanə bir vəziyyətdədir. Yudeniç və Bermont biri-biri ilə xüsumət [düşmənçilik] etməkdədir.”

**Almaniyalıların sürgün edilmələri haqqında**

Nauen - Ali Belçika komandanlığı tərəfindən idareyi-mülkiyyə qaydası ilə Almaniya əhalisindən altı nəfərinin Malmedinin Almaniyaya iltihaq edilməsinə [birləşdirilməsinə] dair rəy verdikləri üçün sürgün edildiklərini mütəzəmmin [ehtiva edən] bir nota İngiltərə nümayəndələrinə təqdim etmişlərdir.

Bununla bərabər, sülh müahidənaməsi [sazişi] bu mahal əhalisinə öz rəylərini sərbəst söyləməyə imkan verir. Müttəfiq hökumətlər sərbəst rəy verməк, azadlıqdan sonra mümkün olacağını bəyan etmişlərdir.

**Tətil**

Saratov - Tsaritsında nəşr edilməkdə olan Ağ qvardiya qəzetələrinin verdikləri məlumata nəzərən, Rostovda olan tətil davam etməkdədir.

Tula - Fərar edib gələnlərin rəvayətinə görə, Maxno dəstələri tərəfindən Berdyansk və Nikopol işğal edilmişdir. Mariupol yaxınlığında vuruşmalar davam etməkdədir. Denikin tərəfindən aldadılmış olan Cənub Rusiya kəndçiləri üsyançı dəstələri tərəfindən müavinət görməkdədirlər. Kəndçilər Ağ qvardiya əlindən qaçmış olan Qırmızı ordu nəfəratını gizlətməklə, onlara hər bir mühimmati-zəruriyyə verməkdədirlər.

*(Almaniya mətbuatı)*

**Fon Sandersin əzli**

Liman fon Sanders qanuni təqaüd təyin edilməklə xidmətindən infikak edilmişdir [uzaqlaşdırılmışdır].

**Müahidə imzalanması**

Təşrini-əvvəlin 27-də Sen-Cermendə Heyəti-Vükəla rəisi ilə Müttəfiqlər, Etilaf [Antanta] dövlətləri və Almaniya-Avstriya arasında sülh müahidənaməsi [sazişi] imza edilmişdir.

**Ərəblər Fransa və İngiltərə əleyhinə**

Londondan Parisə gəlmiş olan ərəb əmiri Amerika qəzetəçiləri ilə etdiyi müsahibəsində Suriyanın İngiltərə və Fransa arasında təqsiminə [bölüşdürülməsinə] dair 1916 sənədə əqd edilən [imzalanan] gizlin etilafnaməni [sazişi] ərəb əhalisinin qəbul etmədiyini demişdir:

“Avropa dövlətləri təhti-himayəsində [himayəsi altında] olmağı qəbul etməkdənsə, biz ərəblər silaha sarılaraq müharibə etməyi əfzəl [üstün] biliriz. Biz öz hüquq və ixtiyaratımızın xələldar edilməməsini tələb ediriz. Suriya təqsim qəbul etməz və müstəqil olmalıdır.”

**Petroqrad vuruşmaları**

Revel - Eston ordusunun Baş komandanı Şura qəzetələri müxabirinə Petroqrad cəbhəsində bolşeviklərin qüvvə aldıqlarını bəyan etmişdir:

*“Oralarda ciddi vuruşmalar davam edir. Bolşevik qoşunları son dərəcə gözəl təlbis edildikləri [geyindirildikləri] kimi, yaxşı ......mişlərdir. Yudeniçin Estlandiyadan [Estoniyadan] qüvvət almasına gəlincə,*





*bu məsələ bir qədər ciddi əngəl törədir. Kolçak, Yudeniç və Denikin Estlandiya istiqlaliyyətini etiraf etməyirlər. Bolşeviklər Estlandiyada intibahnamələr [vərəqələr] nəşr edərək Estlandiya istiqlaliyyətini qəbul etdiklərini bildirirlər.”*

**Kabinə təbəddülatı**

Berlindən verilən xəbərlərə nəzərən Latviya Şurayi-Vükəla [Nazirlər Kabineti] rəisi Ulma[nis] istefa vermişdir. Onu sosialist Mender əvəz edəcəkdir.

**Rostov tətilləri**

Rostov - İki həftədir ki, Rostovda həştad min əmələ tətil etməkdədir. Zavod və fabrika sahibləri əmələlər ilə müzakirata girişmək istəmişlərdir. Muzdlarının artırılmadığı və iş vaxtları əskilmədikcə, tətillərində davam etməyi qərara almışlardır.

*(Qafqaziyada Müttəfiqlər heyətinin radio xəbərləri)*

*27 təşrini-əvvəl*

**Türkiyədə intixabat**

Türkiyə dövləti əhaliyə müraciətən bir intibahnamə nəşr edərək, ümumi intixabatın [seçkilərin] təşrini-sani əvaxirindən [noyabrın axırlarından] gec olmayacağını bəyan edir.

**Yudeniçə mühimmat**

San-Fransiskodan təşrini-əvvəlin [oktyabrın] 7-də Yudeniç ordusu üçün mühimmati-hərbiyyə ilə dolu bir gəmi yola rəvanə oldu. Mühimmatın miqdarı üç milyon məbləğ miqdarındadır.

**İran şahı**

Londonda şahın rəsmi mülaqatı [görüşü] təşrini-əvvəlin 31-nə təyin edilmişdir.

**Klemansonun istefası**

Ümumi intixabatdan və yeni Məclisi-Məbusan işə başladıqdan sonra özünün qətiyyən istefaya çıxacağını Klemanso bəyan etmişdir.

**Puankarenin İngiltərəyə səyahəti**

Puankarenin İngiltərəyə səyahəti təşrini-saninin [noyabrın] 10-a təyin edilmişdir.

**Cəmiyyəti-Əqvam**

Amerika Məclisi-Əyanı [Senatı] Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] haqqında olan vəziyyəti təsdiq etməyəcəyi surətdə, Cəmiyyəti-Əqvam iclasının Vaşinqtonda olmayıb, Londonda dəvət ediləcəyi qərara alınmışdır.

**Bəhri-Şimalın minalardan təmizlənməsi**

Bəhri-Şimalı [Şimal dənizini] minadan təmizləyən İngiltərə baş idarəsi Bəhri-Şimalın bütün patlanğıc aparatlarından təmiz edilməsi təşrini-sanidə [noyabrda] tamam olacağını elam etmişdir [bildirmişdir].

**Ermənistan üçün Amerika qoşunları**

Cəmahiri-Müttəfiqə Məclisi-Əyanının [Birləşmiş Ştatlar Senatının] Xarici İşlər komissiyası Ermənistana Ermənistan mənafeyi mühafizəsindən ötrü 20 min nəfər Amerika qoşunlarının göndərilməsi xüsusda Məclisi-Əyana məruzədə bulunmuşdur.

**İtaliya və yunan cəmiyyəti**

Romada yeni təşəkkül etmiş İtaliya-Yunan Cəmiyyətinin 1-ci iclasında Nitti, Tittoni, Venizelos və yunan Xariciyyə naziri Politis isbati-vücud [iştirak] edirlər.

*(İtaliya heyətinin radio xəbərləri)*

**İtaliya ticarət donanması**

Eylül [sentyabr] ayında Cəmahiri-Müttəfiqədə inşa edilmiş 5 ticarət gəmilərindən ikisi İtaliya üçün təyin edilmişdir.

**Yun ticarəti**

Yun ticarətini genişləndirməkdən ötrü Milanda bir ticarət müəssisəsi məktəbi bina edilməkdədir.

**Beynəlmiləl İqtisad Şurası**

Beynəlmiləl İqtisad Şurası Romada təşrini-saninin 20-də ictima edəcəkdir [yığışacaqdır].

**İtaliya-Hamburq**

Romadan verilən xəbərlərə nəzərən, İtaliya limanları ilə Hamburq arasında gəmi hərəkatına başlanılmışdır.

**Romaya yeni İngiltərə səfiri**

Yeni təyin edilmiş İngiltərə səfiri Byukenen Romaya varid olub [gəlib], Səfarət əzası [Səfirlik üzvləri] ilə İngiltərə müstəmləkəsi nümayəndələrini qəbul etmişdir.

**Avstriya maliyyəsi**

Avstriyanın dövləti borcu 42 milyard hesab edilməkdədir. Dövləti büdcədə sənədə 7 milyard açıqlıq vardır.

...

**Bolqariya heyətinin cavabı**

Bolqariya heyəti bu günlərdə Sülh Konfransına Müttəfiqlər şəraitinə [şərtlərinə] cavab təslim etmişlərdir. Təqdim edilən cavab 130 səhifədən ibarətdir.

**Lenin yaralanması şayiələri**

Almaniya qəzetələri Moskvadan aldıqları məlumata nəzərən, bolşeviklərə axırıncı sui-qəsd əsnasında atılan bomba patlayışından Lenin ağır surətdə qarnından yaralanmışdır.

**QƏZETƏLƏRDƏN**

**Almaniyada tətil ilə mübarizə**

Almaniyada texnika işlərinə köməkçi qoşun təşkili işlərinə ziyadə bir ciddiyyətlə həsri-övqat edilmədədir [vaxt sərf edilməkdədir]. Bu qoşun tətil olduğu təqdirdə, əhəmiyyəti-ümumiyyəni haiz olan [ümumi əhəmiyyət daşıyan] elektrik, ərzaq, su təchizatı və başqa bu dürlü müəssisələrin işdən qalmamasını təmin edəcək və işə mane olmaq qəsdi ilə edilən hərəkatı qüvvə ilə yatıracaqlardır.

**Omsk hökuməti**

OSVAQ-ın əxbaratına [xəbərlərinə] nəzərən qəvanin [qanun] və intizam bərpa edilməsini təmin etmək üzrə ittixaz edilən tədabirdə [görülən tədbirlərdə] ahəngdarlıq olmaq niyyəti ilə Omsk hökuməti Şurayi-Vükəlası [Nazirlər Kabineti] üç – Daxili, Hərbi və Hüquq nazirlərindən ibarət bir Zəbtiyyə [Asayiş] Komitəsi təsis etməyi qərara almışdır. Komitə mülki və hərbi işləri idarəyə müvəzzəf [borclu] olub, məhəllərdə [yerlərdə] bulunan mülki və hər-





bi məmurların fəaliyyətini dəxi kontrol edəcəkdir.

**Müsəlman Mərkəzi**

Müsəlman Mərkəzi tərəfindən Daxili İşlər İdarəsi naçalniki Əyan əzası [Senat üzvü] Suviçə iki proje [layihə] təqdim edilmişdir:

1) Rusiya müsəlmanları məsələsini tərtib etmək və məlumat toplamaq üçün idarə indində [nəzdində] xüsusi bir komissiya təşkili;

2) Krım müsəlmanları üçün milli idarə təsisi haqqında.

**Qafqaziya məsələsi**

İstanbuldan Tiflisə gələn məlumata görə, Almaniya ilə Könüllü ordu arasında vüqusu məlhuz və möhtəməl bulunan [baş verməsi gözlənilən və ehtimal olunan] ittifaq, ingilisləri fövqəladə qorxutmaqdadır. İngiltərə bu ittifaqı nəzəri-diqqətə alaraq öz nüfuzunun Qafqaziyada baqi [əbədi] qalmasına cəhd və səy eyləməkdədir. Çünki ingilislər əmin olmuşlardır ki, əgər Almaniya və Könüllü ordu arasında ittifaq vaqe olarsa, o halda bu ittifaq bütün qüvvəti ilə ingilislərə qarşı manеələr çıxarmağa çalışacaqdır. İstanbulda şayiə vardır ki, ingilislər, Gürcüstan və Azərbaycanın mandatını alacaq imiş.

**Neft yerinə təzək**

“Moskovskiye izvestiya” qəzetəsində yazılmışdır ki, bu yaxın günlərdə yanacaq işlərinə baxan heyətin Moskvada bir iclası olmuş. Həman iclasda mühəndis Tatarinov yanacaq (təsxinat) xüsusunda təqdim etdiyi layihədə odun-kömür fiqdanından [yoxluğundan] dolayı Cənubi Rusiyada məşhur olan təzək istemal [istifadə] edilməsini təklif etmişdir. Tatarinovun projesi ilə təzək istemalı bütün-bütünə odun və kömür ehtiyacını rəf edəcəkmiş [aradan qaldıracaqmış].

Eyi peyin olmadığı üçün Tatarinov zibildən təzək yapılmasını təklif edir və zibili təzək yapmaq üçün lazımi makinalar yoxluğundan, təzək Tatarinovun ixtirakərdəsi olan [ixtira etdiyi] kiçik qəliblərdə əl ilə yapılacaqdır.

**Kiyevdə yatalaq xəstəliyi**

Kiyevdə yatalaq xəstəliyi dəhşətli bir sürətlə artmaqdadır. Xəstəxanalar dolu olduğundan xəstələrin bir çoxu evlərdə qalır və bəziləri də həkimlərin müayinə odasında ölürlər.

**Krasnovodskun alınması şayiələrinə dair**

Bakı və Tiflisdə nəşr olunan qəzetələrdə Krasnovodskun (Təzəşəhərin) – Məvərayi-Bəhri-Xəzərdə [Zakaspiyskdə] dabravolların son istinadgahı olan mövqeyin Türküstan Şura qoşunları tərəfindən işğal edilməsinə dair dərc edilən xəbərlər münasibətilə “Borba” qəzetəsinin müxabiri bu xəbərlərin doğruluğunu bilmək üçün Türküstan Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] dəvət edəcək komitənin sədri M. Çokayev cənablarına müraciətdə bulunmuşdur.

Çokayevin sözlərinə görə, bu xəbər əsilsizdir. Türküstan bolşevikləri Qızıl-Arvad şəhərini – ki orada Asiyayi-Vüsta [Orta Asiya] dəmiryollarının baş emalatxanaları da mövcuddur – işğal etmişlərdir. Krasnovodska gəldikdə isə, orası bu vaxta qədər dabravollardadır. Lakin ora-

nın da müqəddəratı əvvəlcədən həll edilmişdir. Bunu dabravollar kəndiləri də gizləməyərək iqrar [təsdiq] edirlərmiş. Krasnovodsk işğal edildikdən sonra bolşevik əleyhdarı olan qüvvələr əlində Məvərayi-Bəhri-Xəzərdə yalnızca bir Fort-Aleksandrovsk (orada şimdi Ural kazakları vardır) qalır ki, onun da heç bir əhəmiyyəti-hazirəsi [hal-hazırda əhəmiyyəti] yoxdur.

Çokayev əlavə etmiş ki, onu da qeyd etməlidir ki, dabravol qitəatının [hərbi hissələrinin] Türküstan ərazisində nümayan olması [meydana çıxması] Türküstan bolşeviklərini təzif edəmmədi [saylarını çox-alt-madı]. Biləks [əksinə], dabravollar Mavərayi-Bəhri-Xəzərdə yürütdükləri siyasət saiqəsi [səbəbi] ilə əhalinin onlara müavinət etmək həvəsini qırdı.

Mavərayi-Bəhri-Xəzər əhalisi bolşeviklərə qarşı bitərəf bir vəziyyət almışdır. Lakin dobrovollara da heç bir dürlü müavinətdə bulunmayırlar. Mərkəzi Türküstanda isə bolşeviklər başqa bir siyasi mövqe işğal edirlər. Qırmızı orduya daxil olanların miqdarı gündən-günə artır. Bu bir əmri-vaqedir [faktdır] ki, onu gizləməyin icab və lüzumu yoxdur.

**"Qoben" drednoutu**

Bakıda nəşr olunan "Qolos Rossii" qəzetəsində dərc edilən bir xəbərə nəzərən, əvvəlcə almanlar tərəfindən Türkiyəyə ehda [hədiyyə] edilmiş "Qoben" krauzer [kreyser] drednoutu hal-hazırda Türkiyədə Həmidiyyə rixtimində [sahilində] ləngərdaz olmuş [lövbər salmış] imiş. Türkiyə zabitanı bunu almanlara təşbeh ilə [almanlardan nümunə götürərək] batırmaq istəmişlər imiş. Lakin "Qoben"in yaxınlığında dayanmış İngiltərə hərbi gəmiləri buna mümaniət etmiş [mane olmuş] və drednoutun türk tayfası [matrosları] da gəmidən qaçmış imiş.

## SÜLH ƏTRAFINDA

**Türkiyə müqəddəratı haqqında Klemansonun bir məktubu**

Səlahiyyətdar bir məqamdan vüqu bulan ittilaatımıza nəzərən [aldığımız xəbərlərə görə], Sülh Konfransı rəisi müsyö Klemanso əxirən [son vaxtlarda] Şərq Ümuru [İşləri] Komisyonuna göndərdiyi bir məktubda Türkiyə müqəddəratı ətrafında cərəyan edən müzakirələr əsnasında və hüquqi-milliyyəmizin nəzəri-etibara alınaraq icabati-nisfət və mədələtin [insaf və ədalət şərtlərinin] ehmal edilməməsi və türk hüququnun zıyasına [itirilməsinə, aradan qaldırılmasına] meydan verilməməsi yolunda pək müsaid olduğu təmin olunan bir tərzdə bəzi vəsaya [nəsihətlər] və təlimat sərd və ityan eyləmişdir [söyləmiş, bəyan etmişdir].

*"Sədayi-millət"*

**Amerikada**

Peru şəhərində olan Sosialist firqəsi Versal sülh müahidənaməsi əleyhinə protesto elan etmişdir. Məzkur [adı çəkilən] firqə ədalətli bir sülhün əqdi [imzalanması] üçün Cənubi Amerika əhalisi arasında bir çox fikir oyandırmağa və üsyanlar hazırlamağa başlamışdır.

**Əsgəri tədabir**

Marşal Foş Məclisi-Aliyə xəbər vermişdir ki, Müttəfiqlər ərkani-hərbinin riza və müvafiqəti [Antanta hərbi qərargahının razılığı və münasib bilməsi] ilə əsgəri tədabir [hərbi tədbirlər] tərtib edilmiş, şu tədabir sülh müahidənaməsi ilə birlikdə əxzi-qüvvə etməlidir [qüvvəyə minməlidir]. Beynəlmüttəfiqin işğaliyyeyi-əsgəri heyəti [Müttəfiqlərarası hərbi işğal heyəti] müxtəlif məhəllərdə [yerlərdə] müəyyən edilmişdir. Əgərçi Amerikanın iştirakı sülh müahidənaməsinin Vaşinqtonda Məclisi-Əyan [Senat] tərəfindən təsdiq edilməsindən asılıdır, lakin işğal üçün təyin edilmiş beynəlmüttəfiqin əsakiri [əsgərləri] toplamaq və nəql etmək üçün də bir qədər vaxt lazımdır. Marşal Foş ümid edir ki, bunların həpsi təşrini-saninin ibtidalarına [noyabrın əvvəllərinə] kimi bitər və o vaxta qədər müahidənamə də imzalanıb qüvvəsini alar.

**Rusiya ləvazimati-hərbiyyəsi**

"R. M." qəzetəsinin verdiyi əxbarata [xəbərlərə] nəzərən, Məclisi-Ali Denikin və Kolçakın istidasını qəbul edərək, Almaniya tərəfindən müharibə zamanı zəbt edilmiş olan Rusiya ləvazimati-hərbiyyəsinin [hərbi ləvazimatının] onlara verilməsini qərara almışdır. Bu xüsusda tədabiri-lazimə ittixaz edilib-edilməməsini müayinə etmək Beynəlmüttəfiqin Kontrol Komisyonuna həvalə edilmişdir.

## TÜRKİYƏDƏ

**Müşir Fuad paşanın bəyanatı**

Anadoludakı Təşkilati-Milliyyə tərəfindən Trabzon valisi Bəkir Sami bəyin ismi ilə müşir [marşal] Fuad paşaya bir məktub göndərilərək, Sultan ilə mülaqat [söhbət, müzakirə] edilməsi və Anadolu təşkilatı haqqında məlumat verilməsi rica edilmişdir. Müşir Fuad paşa Sultanı ziyarət etdikdən sonra, paşanın "Təsviri-əfkar" qəzetəsi mühərriri ilə vaqe olan mülaqatını aşağıda eynən dərc ediriz:

Fuad paşa Sultan həzrətlərinə olan məruzatını "Təsviri-əfkar" mühərririnə bərvəchi-zir [aşağıdakı kimi] hekayə etmişdir:

*"Zati-şahanənin, məmləkətlərinin səlamət və səadətlərinə mətuf [dair] olan amali-hümayunlarını [ali məqsədlərini] ötədən bəri bildiyim üçün, Qüvayi-Milliyyə [Milli Qüvvələr] tərəfindən zati-xilafətpənah [xilafətin pənahı olan] əfəndimizə təqdim olunmaq üzrə mənə göndərilən ərizəni hüzuri-hümayuna rəf [təqdim] etməkdən çəkinmədim. Çünki Təşkilati-Milliyyə şövkətməab [əzəmətli, ulu] əfəndimizə mütəəddid [bir çox] dəfələr məruzatda bulunmaq istəmişlərsə də, hökumət buna hər dəfəsində mane olmuşdu.*

*Padşahımıza veriləcək qapalı zərf içindəki ərizə ilə bərabər, mənə də Milli Ordudan bir məktub gəlmişdi. Mütəəssir oldum. Vəziyyətin nə qədər fəna idarə edildiyini görürdüm. Bunun üzərinə dərhal sarayi-hümayuna [padşahlıq sarayına] getdim, yavər vasitəsilə xaki-payi-hümayunlarına [padşahın ayağının tozuna] üz sürmək istədiyimi ərz etdim. Lütfən hüzuri-hümayuna qəbul edildim. Padşahımızın haqqi-acizanəmdə etimadi-hümayunları vardır [Padşahımız, aciz bəndəsi olan mənə etimad etməkdədir].*

*Dünyada vətənimin səadətindən başqa heç bir əməlim [arzum] yoxdur. Şəx-*

*simə aid bir iş üçün heç bir kimsəyə müraciət etmədim. Padşahım da buna vaqifdir. Vətənim üçün üç övlad şəhid verdim, iki də yaralı. Şimdiyə qədər əlimdən gələn xidməti yapdım. Milli Ordudan kimsəni tanımam. Fəzlə bir münasibətim də yoxdur. Fəqət bu ordunun məmləkətdən başqa bir şey düşünmədiyinə qaneyəm. İştə bütün bunları hüzuri-hümayunda xaki-payi-şahanəyə ərz etdim.*

*Padşahımız şimdiyə qədər bunlardan xəbərdar olmadığını və bu hala çox mütəəssif olduğunu [təəssüf etdiyini] və millətin səadətindən başqa bir şey düşünmədiyini, Milli Ordunun xülus [səmimiyyət] və sədaqətinə qane bulunduqlarını bəyan buyurdular. Və ayrıca təqdim etdiyim ərizəni diqqətlə mütaliə etmək lütfündə bulundular. Samieyi-məsərrətimlə dinlədikdən sonra, gözlərim yaşararaq, ərzan buyurulan müsaideyi-səniyyə üzərinə hüzuri-hümayundan ayrıldım [Öz xoşbəxt qulağımla qulaq asandan sonra, padşahın münasib görüb icazə verməsi ilə, gözlərim yaşararaq o uca hüzurdan ayrıldım].*

*Əski hökumət bütün mənası ilə məmləkətə fənalıq etdi. Mən bu fənalığı görür və qan ağlayırdım. Hətta 15 gün müqəddəm [qabaq] Əyanda arxadaşlara hökumətin bu idarəsizliyinin pək fəna bir şəkil aldığını söyləyərək, vükəlaya [nazirlərə] və zati-şahanəyə [şəxsən padşaha] müraciət edilməsini təklif etmişdim. Layihə də yazılmışdı. Çox yazıq ki, təşəbbüs qövldən feilə [sözdən əmələ] çıxmadı. Əski rəisi-hökumətin yapdığı zərərlər, qaçırdığı fürsətlər böyükdür.*

*İnşallah, hökuməti-cədidə [yeni hökumət] bütün bu zərərləri təlafi edər və icraatı ilə milləti şu müşkül dəqiqələrdən qurtarar. Yaxında Milli Ordudan mürəxxəs [səlahiyyətli nümayəndə] gələcəkdir. Hökumət Milli Ordu ilə hali-təmasda bulunur. Bu gün ən çox mətlub olan [istənilən] şey, ənasir [ünsürlər; xalqlar] arasındakı vifaq və ittihaddır [həmrəylik və birlikdir]. Hökumətin də bu cəhəti düşündüyünə əminəm."*

## VƏZİFƏ

Hər şeydə, hər xüsusda adəti-millimizi tərklə, Avropanı təqlid ediriz. Avropa yeni sistem bir əlbisə yapır, biz də yapırız. Qadınlarımız belə bu təqlidə iştirak edirlər. Avropa bığlarını təraş edir, biz də ediriz. Bir zamanlar Almaniya zabitanı və sair əhali bığlarını uzadırlardı. Bu sistem bığ Türkiyəyə də sirayət edərək zabitan və əhali almanları təqliddə heç müsamihə [səhlənkarlıq] göstərməyirdi. Halbuki qısa bığ qullanmaq və ağıza girməyəcək dərəcədə bığları kəsmək sünnətisəniyyə idi.

Vəlhasil, hər adətimizi və təbiətin arzu eylədiyi şeylərin kaffəsində [hamısında] Avropanı təqlid ediriz. Bu xüsus hər kəsin arzu və xahişinə tabe bir keyfiyyətdir. Hər kəs hürriyyətində müstəqildir. Ancaq Avropanı hər xüsusda təqliddən ləzzət alırız. Şu halda Avropada daha ziyadə müstəhsən [xoşagələn] və daha nafe [faydalı] və tərəqqiyə xadim icraat və müamilat [işlər] vardır ki, bunların heç birini təsvib [bəyənmək] və təqlid etmək istəməyiriz.

Əzancümlə [o cümlədən], Avropanın ən ziyadə şayani-təqdir [təqdirəlayiq], əhalətihi-həzihi [hal-hazırda] məmləkətimizdə icrası əhəmm və əlzəm [vacib və lazım] olan və hər xüsusda tərəqqi və rifahı mövcib [tərəqqi və rifaha səbəb] olan bir müamilə [iş, əməl] vardır ki, o da vəzifədir.

Avropanın hər nöqtəsində və baxüsus İsveçrədə bu vəzifə xüsusuna fövqəladə bir surətdə etina edilməkdədir ki, bir məmur müəyyən zamanda vəzifəsi başına gəlməz və mafövqünə inqiyad [vəzifəcə özündən böyük olana tabe olmaz] və itaət etməzsə, dərhal təhti-mühakiməyə [mühakimə altına] alınaraq, mühakiməsi bilicra [icra edilməklə], qəbahəti təhəqqüq eylədiyi [təsdiq edildiyi] anda bir daha məmuriyyətdə istixdam edilmək üzrə əzl edilər [xidmətə götürülmək üzrə qovular].

Məsələn, bir məmur ... saatda vəzifəyə gələcək və ... saatda istirahət edəcək, ... saatda tətil edəcəkdir ibarələri o məmurun qapısında bir lövhə ilə təliq olunmuşdur [asılmışdır]. O məmur o saatda vəzifəsi başına gəlib ərbabi-müraciətin və məsalihin xüsusatını təsviyə etməyə [müraciət edənlərin və dövlət idarəsində işi olanların işlərini həll etməyə] borcludur. Və bu müəyyən saatlardan başqa müraciət edən ərbabi-məsalihin suda [narazılıq] və şikayəti qətiyyən nəzərietibara alınmaz. O məmur bu şikayatdan [şikayətlərdən] dolayı qətiyyən məsul və müatəb tutulammaz [məzəmmət edilə bilməz]. Ancaq əks təqdirdə mərüyyülərz müamiləyə [yuxarıda göstərilən rəftara] hədəf olaraq, təcziyə və [ya] təbriyə edilir [cəzalandırılır yaxud bəraət alır].

Bu müamilə kiçik məmurlara aid olmayıb, bu babdakı mövzu qəvanin, cümlə haqqında siyyan müamilə edilməsini möhtəvi idüyündən [bu sahədə qoyulmuş qanunlar, hər kəs barədə bərabər rəftar edilməsini nəzərdə tutduğundan], vəzifəsinə eyni zaman və saatda davam etməyən vükəla, vüzəra və rüəsa [vəkillər, nazirlər və rəislər] belə bərmövcibi-üsul və qanun məsul və təcziyə edilirlər [üsul və qanuna müvafiq olaraq məsul tutulur və cəzalandırılırlar]. Şu halda anlaşılır ki, Avropa qanunları qəvanini-mövzuədən [qoyulan, qüvvədə olan qanunlardan] heç bir kimsəni istisna etmədiyi kimi, vəzifə xüsusunda da etina və davamı da bir qanun və üsula tabe tutmuşdur.

Vəzifəyə davam xüsusunda mövzu qəvanin ehkamı [qüvvədə olan qanunların hökmləri] pək şiddətli olmaq mülabisəsi [səbəbi] ilə məmurin [məmurlar] vəqtimüəyyəndə vəzifəsi başına gələr və təmşiyyəti-ümura [işlərin yerinə yetirilməsinə] fövqəladə bir etina və diqqətlə qeyrət edər və müraciət edən ərbabi-məsalihi qapılarda süründürməyərək, dərhal məsulunu isaf edər [borcunu, vəzifəsini yerinə yetirər] və məmnuniyyətlə yola qoyar.

İştə bu davam saiqəsi [səbəbi] ilə heç bir iş təxirdə qalmaz, həm məmur rahat edər, işi, vəzifəsi tərakümdə qalmaz [üstüstə yığılıb qalmaz] və ərbabi-məsalih də məşğul olduğu digər xüsusatdan [işlərdən], müstəfid olacağı [fayda götürəcəyi] ticarət və mənafeyindən məhrum qalmaz. Həm hökumət nüfuz və iqtidarını mühafizə etmiş olar və həm də ticarəti [ticari] və iqtisadi mənafe təmin edilmiş olar. Əhali zəngin olar və məmurlar da bu zənginlik sayəsində aldığı maaşla məsud və bəxtiyaranə bir həyat keçirmiş olar.

Avropanın məmduh və şayani-təqdir [xoşagələn və tərifəlayiq] olan bu vəzifəyə davam xüsusu, əcəba, Türkiyədə, İranda və sair hökumati-islamiyyədə [müsəlman hökumətlərində] varmıdır? Xayır, yoxdur və olammaz da. Çünki biz, yəni müsəlman hökumətləri daima arzu və həvəsimizə tabe bulunduğumuzdan, hər an mənfəətpərəstanə müamilə [rəftar] etdiyimizdən, hər dürlü tərəqqi və məsudiyyətdən [xoşbəxtlikdən] məhrum qalırız.

Bundan başqa, vəzifəyə davam xüsusunda qəvanini-mövzuəmiz qayətlə müsaid bir halda olduğu və binaənileyh [ona görə], mafövqə inqiyad [vəzifəcə yuxarıda olanlara tabe olduğumuz] və itaətdə bulunduğumuz üçün həm müamilat [işlər] təxir edir və həm də zavallı ərbabi-müraciət vaxtilə işlərini görəmmədiklərindən dolayı pərişan və daima bir zərərə məruz qalıb, ticarət və mənfəətini tərəqqi etdirəmməyir.

Məmurlar isə vəzifəsini tərklə, ötədəbəridə səfihanə, səfilanə imrari-vaxt eylədiyi cəhətlə, vəzaifi-mövduəsini bəhəqq ifa edəmməyir [orada-burada səfeh işlərlə və avaraçılıqla vaxt keçirdikləri üçün öhdəsinə tapşırılan vəzifəni layiqli surətdə yerinə yetirə bilməyir]. Ümuri-hökumət təraкümlər içində müzəbzəb bir halda qalır [dövlət işləri üst-üstə yığılıb, qərarsız bir halda qalır].

Baxınız, vəzifəyə ədəmi-davam [davam etməmək] üzündən nə qədər fənalıqlar təhəddüs edir [meydana çıxır]. Vəzifəyə ədəmi-davamdan mütəvəllid [doğulan] təəxxürat saiqəsi [yubanmalar səbəbi] ilə həm hökumət iqtidar və nüfuzunu təsir etdirəmməz, müamilati-hökumət [hökumət işləri] hər dürlü tənqid və tərizə [pislənməyə] məruz qalar və həm də ərbabi-məsalih vaxt və zamanı ilə hökumətə aid işlərini röyət edəmmədiklərindən [görə bilmədiklərindən, həll edə bilmədiklərindən] dolayı, məşğul olduqları digər ticarət və mənfəətdən məhrum qalar, axirüləmr [axırda] bir fəqrü zərurətə [yoxsulluq və ehtiyaca] düçar olar.

Binaənileyh [ona görə] maddi şu zərər və fənalıqlardan başqa da mənən Avropaya və sair mütəməddin [mədəni] məmləkətlərə qarşı barbar, qərəzkar namı altında qalaraq, bir çox tənqid və tərizata [pislənmələrə] məruz qalmış olarız.

Şu halda, Avropanın şu məmduh və müqəddəs olan vəzifə haqqındakı müamiləni təqlid etmiş olsaq, nə dərəcələrdə naili-sitayiş [hörmətə nail] olacağımızı ərbabi-insaf və həqiqətin nəzəri-təqdirinə tövdi edəriz [insaf və həqiqət sahiblərinin qiymətləndirməsinə buraxırıq].

Vəzifə ifası xüsusunda Avropanı təqlid etməyəcəyiz, ancaq dinimiz və qanunumuzu mühafizə etmiş olacağız. Çünki Qurani-Kərimimiz bizə ərbabi-müraciətin və hüquqi-ibadın [bəndələrin haqqının] mühafizəsini amirdir [əmr edir]. Əgər vəzifeyi-mövduəmizi müəyyən saatında ifa etmiş olarsaq, maddətən nüfuz və təsiri-hökuməti və hüquqi-ibadı mühafizə etdiyimizdən dolayı, həm qanunun verəcəyi cəzadan mübərra [uzaq] bulunacağız və mənən də üxrəvi əcr və məsubata nailiyyətlə məzhəri-əfv[ü] qüfran olmuş olacağız [axirətdə mükafat və savab qazanmaqla, bağışlanmağa və mərhəmətə layiq olacağız]. Şu halda həm dünyəvi və həm də üxrəvi səadətə nailiyyətlə bəkam [kam almış] və düşmənlərə qarşı da ibqayi-nam etmiş [ad-sanımızı əbədiləşdirmiş] olacağız.

Şu məruzati-minsərdimdən [bir-birinin ardınca söylədiyim bu sözlərdən] məqsədim, Cümhuriyyətimiz hənuz tərəqqi və inkişafa başlayacağı bir sırada məmurların və hətta nüzzar və rüəsanın [nazirlər və rəislərin] belə vəzifələrinə vaxt və zamanla davam eyləmədiklərindən dolayı bir çox fənalıqları mövcib olduğu kimi, beynəl-əhali [əhali arasında] çayxanalarda, soqaqlarda sədayi-suda və şikayət [narazılıq və şikayət səsləri] məəttəəssüf [təəssüf ki], istema edildiyindən [eşidildiyindən], bu kimi halata [hallara] meydan verilməyərək, hər məmurun və baxüsus məmləkətin ümran və tərəqqisini badi olacaq [ölkənin rifah və tərəqqisinin əsasını qoyacaq] inzibat məmurlarının və sair əhali ilə sıxı təmasda bulunan məmurini-sairənin müəyyən saat vaxtlarda vəzifələri başlarında bulunmalarını mərcilərindən [aidiyyətli yerlərdən] təmənna və rica eyləriz.

*Z. Ayn.*

## HÜRUFAT İSLAHI HAQQINDA BİR MƏKTUB

İdarəmiz İstanbulda hürufat [əlifba] islahı haqqında bir heyəti-elmiyyə və mütəxəssisə tərəfindən edilən bir təşəbbüsdən bahis olaraq [bəhs edən] aşağıdakı məktubu almışdır.

Əgər Bakıya gəlmiş olsaydım, Azərbaycanın möhtərəm Maarif nazirinə İslahi-Hüruf Cəmiyyəti Əncüməni-Elmiyyəsincə [Elmi Şurası tərəfindən] qəbul edilmiş olan əşkali-hürufun – ki hürufi-mövcudəmizin əşkali-müəddələsidir [mövcud hərflərimizin dəyişdirilmiş şəklidir] – ümum məkatibə [məktəblərə] qəbuluyla təcəddüd [yenilik] və tərəqqiyə doğru mühüm xütvədə [addımda] birinciliyi ehraz eyləməsi [qazanması] [...]islahi-hüruf haqqında bəzi mütaliələri yaxından sizə ərz edəmmədiyimdən dolayı mütəəssifəm [təəssüf edirəm]. İşbu məktubumla ərzi-məqsəd edirəm.

İstanbulda İslahi-Hüruf Cəmiyyəti 3 şubat [1]327 tarixində Darülfünun əazimi-üdəba və ricali-elmiyyeyi-mümtazədən mürəkkəb [ən böyük ədiblər və seçkin elm xadimlərindən ibarət] iniqad edən [yığışan] konqre nəticəsində doktor Nəcməddin Arif və doktor Milaslı İsmayıl Haqqı bəylərlə müştərəkən tərəfimdən təsis edilmiş və hökuməti-səniyyəcə [uca hökumət tərəfindən] təsdiq olunaraq, mərhum Qazi Muxtar paşanın rəyasəti təhtində [altında] mərhum Rəcaizadə Əkrəm və Mahmud Əsəd [Bozqurd] bəy əfəndilərlə Maarif Nəzarəti[ndən] İsmayıl Haqqı [Baltacıoğlu], doktor Həmdi Suad [Aknar], doktor Saim [Əli Diləmrə], doktor Nəcməddin Arif və İsparta məbusu Haqqı [Ağlarcazadə] və İstanbul Teleqraf Baş müdiri bəylərdən mürəkkəb [ibarət] bir Əncüməni-Elmi [elmi şura] təşkil qılınmış idi.

Əncüməni-Elmi qəzetələrlə məqsədi-təşəkkülünü elan və izah etdiyindən, hər tərəfdən, hətta Kazandan, Orenburqdan varid [daxil] olan əşkali-hüruf və mütaliatı [əlifba şəkillərini və təklifləri] ərizü əmiq [hər tərəfli və dərindən], aylarca tədqiq edərək, 330 sənəsi bidayətində [1914-cü ilin əvvəllərində] qərari-qətisini vermiş və

tədilən atidəki əşkali-hürufu və sədalı hürufu [dəyişikliklə aşağıdakı hərf şəkillərini və sait hərfləri] qəbul eyləmişdir.*

Bu əşkali-hürufda sonraları nöqtələrin atılması üçün beynlərində [aralarında] mühüm əsaslı fərqlər ehdas edilmişdir [qoyulmuşdur]. Ərəbcə kəlimata [sözlərə] məxsus ziyadə hərflər çıxarıldıqdan sonra, türkcə üçün sədalı-sədasız [sait-samit] 30 hərf kafi gələcəkdir.

İslahi-Hüruf Cəmiyyətinin məqsədi mövcud hürufumuzu cüzi təbdil [dəyişdirmək] və islah və hürufi-sövtiyyə nöqsanını bilikmal [sait hərflər əskikliyini aradan qaldırmaqla], hərflərimizə latın hürufu məziyyatını iktisab etdirmək [latın hərflərinin xüsusiyyətlərini qazandırmaq], əldə müttəsil [bitişik] yazılammayacaq şəklə ifrağ ilə [çevirməklə], təəllüm [öyrənmə] və təlimi təshil [asanlaşdırmaq] üçün mətbuatda münfəsil olmasını [ayrı olmasını, ayrı yazılmasını] təmin və hər hecanın mütləqa bir sədalı hərflə yazılması məcburiyyətini vəz edərək [meydana qoyaraq], imlanın birinci əsas qaydasını təsbit və təyin eyləməkdir.

Cəmiyyətimiz bu əşkali-hürufun ana qəliblərini yapdırmış, bir qəzetə təb [çap] edəcək qədər hürufat [şriftlər] tökdürmüşdür. Qəliblər [və] hürufat əlyövm [hal-hazırda] Cəmiyyət mərkəzində mövcuddur.

Bu əşkali-hürufla on nüsxə qədər "Yeni yazı" namı ilə bir qəzetə nəşr edilmişsə də, səfərbərliyin zühuru ilə nəşri tərk edilmişdir. Mükəmməl bir əlifba risaləsi ilə hürufi-münfəsilənin qəvaidini [ayrı yazılan hərflərin qaydalarını] uzun-uzadıya izahən, mərhum Qazi Muxtar paşa tərəfindən yazılan raport təb və nəşr olunmuşdur [dərc edilərək yayılmışdır].

Məəttəəssüf [təəssüf ki], hərb sənələri fəaliyyətsiz keçmiş, təkrar fəaliyyət üçün xitami-hərbə intizar edilməkdədir [müharibənin başa çatması gözlənməkdədir].

İstanbuldan qəzetəniz namına əlifba və risalədən göndərirəm. Baqi hörmət.

*İstanbul Övqaf Nəzarətində*
*müdir müavini:*
*Əli Nüsrət*

* Göstərilən hürufatın şəkilləri mətbəədə bittəb [təbii olaraq] mövcud olmadığından, dərc edilmədi. Fəqət bu şəkillər, bizcə, olduqca məqul [ağlabatan] və mötəbərədd [hesab] oluna bilər.

*İdarə*

## DAĞISTANDA

Tiflisdən bizə verilən xəbərlərə nəzərən, bu günlərdə Dağıstan məsul xadim və fəallarından iki zat [şəxs] Tiflisdə olan İngiltərə komissarı Vordropu ziyarət edərək dağıstanlıların Denikin ilə olan mübarizəsində Könüllü ordu tərəfindən və onun mənafeyinə çalışan İngiltərə zabitinin yersiz müdaxilə etməsinə dair müzakirədə bulunmuşdurlar.

Vordrop cənabları polkovnik Roulendsonun böylə nabəməhəl hərəkətındən [yersiz hərəkətlərindən] dolayı öz təəssüfünü izhar edərək, İngiltərə zabitlərinin İngiltərə dövləti namından danışmağa haqq və ixtiyarları olmadığını təmin etmiş və demişdir ki, ona məlum olduğu üzrə, Denikin nəzdində olan İngiltərə heyəti başında polkovnik Roulendson deyil, general Holman durur. Polkovnik Roulendson isə bu heyət əzasından [üzvlərindən] biridir.

Sonra Vordrop cənabları üz verən vəqə haqqında öz hökumətinə məlumat verəcəyini və bununla bərabər, rəsmi surətdə Gürcüstan Xariciyyə İşlər Nəzarəti təvəssütü [vasitəçiliyi] ilə məhəlli [yerli] mətbuatda bu məsələ xüsusunda öz nöqteyi-nəzərini bildirəcəyini dağıstanlılar nümayəndəsinə xəbər vermişdir.

Şimali Qafqaziyada olan Dağıstan xalqı qiyamının yatırıldığı haqqında "Qolos Rossii" qəzetəsinin hər gün nəşr etməkdə olduğu xəbərlərə rəğmən, dağıstanlılar qiyamı nəinki yatırılmışdır, bəlkə gündən-günə daha da kəsbi-şiddət edib intişar tapmaqdadır [şiddətlənərək yayılmaqdadır].

Dağıstanlılar nəinki sülh təklifinə general [Sergey İvanoviç] Rudnev və ya Kolesnikov nəzdinə mürəxxəslər [nümayəndələr] göndərirlər, bərəks [əksinə], onların mürəxxəslərini qəbul belə etmək istəməyirlər.

Dağıstan, Çeçenistan, Kumık dairəsi əhalisi və inquşlar general Denikin hakimiyyətini heç bir növlə tanımaq istəməyib qəbul etməyirlər. Dağıstanlılar həmişə yürüşlərində davam etməkdədirlər. Üsyan edən Dağıstan xalqına qeyri Dağıstan əhalisi də mülhəq olmağa amadədirlər [qoşulmağa hazırdırlar].

General Denikin əlində göstərilən dairələr də ancaq şəhərlərdir. Dəmiryol xətləri isə müharibə meydanı dairəsindədir. Qudermes ilə Petrovsk və Dərbənd arasında olan dəmiryol hərəkatı bilmərrə kəsilmişdir.

Dağıstanlıların partizan dəstələri Terek nəhrinə və Kizlyara qədər gəlib çatırlar.

Bu yaxınlarda "Qolos Rosii" qəzetəsində general Rudnev tərəfindən Dağıstan əhalisinə xitabən nəşr edilən müraciətnamə, aullarda əhaliyə paylamaq üçün adam bulunmadığından intişar edilməyir [yayılmır]. Çünki kimsədə böylə müraciətnamələrin bir nüsxəsi bulunarsa, həman saat güllələnir.

Bu günlərdə Zaqafqaziyaya övdət edən [qayıdan] və bütün Dağıstan və Çeçenistanı dönüb dolaşmış olan Dağıstan xadimləri orada olan hərəkatın milli bir rəngdə olduğunu təsvir edirlər. Bolşevik hərəkatına dair heç bir söz belə söylənə bilməz. Bolşeviklərdən təşviqat və təbliğat yapmaq fikrində olmuşlarsa da, sonralardan Dağıstanı buraxıb getməyə məcbur olmuşlardır. Yerdə qalanları isə camaat arasına belə çıxa bilməyirlər.

* * *

Şimali Qafqaziya əhvalı haqqında ən mövsuq mənabedən [etibarlı mənbələrdən] aldığımız məlumata məbni [əsasən], əhval üsyançıların nəfinə [xeyrinə] çevrilməkdədir. Xasavyurd ilə Petrovsk arasındakı dəmiryol xətti çeçen qitəatı [hərbi hissələri] tərəfindən əsasına qədər təxrib edilmişdir. Qroznıdakı yeni mədən dairəsinin qismi-əzəmi [böyük hissəsi] çeçenlər tərəfindən işğal edilmişdir. Kumık və çeçen hissələri gecə ilə Tereki keçərək, Aleksandrovsk mövqifini [stansiyasını] dağıtdıqdan sonra Kizlyara qədər getmişlər və yenə geri qayıtmışlardır. Hərəkat gündən-günə genişlənməkdədir.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin vəfat etmiş mühəndis Foxtanın ailəsinə maaş təyini haqqındakı təqriri isteması [rəsmi müraciətinin dinlənməsi] nəticəsində Türüq və Məabir nazirinə birdəfəlik məzkur [deyilən] ailəyə üç ayın məvacibi 9900 manat verilməsi və mütəvvəffanın [vəfat edən şəxsin] cənazə dəfni məsarifatı 4700 manat olmaq üzrə xəzinə hesabına qəbulu tapşırılması qərara alınmışdır.

- Ticarət nazirinin Kürdəxanı duzdağının icarə vaxtının artırılması haqqındakı təqriri isteması nəticəsində işbu sənə də vaxtı artırmaqla, icarə məbləğinin üç dəfə artırılması qərara alınmışdır.

- Maarif nazirinin İkinci Zükur [oğlanlar] gimnaziyası mülkü yerinin Şəhər İdarəsindən alınması üçün 18.000 manat təxsisi [ayrılması] haqqındakı təqriri isteması nəticəsində, istənilən məbləğin 70 milyonluq fonddan verilməsi qərara alınmışdır.

- Ədyan [Dini Etiqad] nazirinin Təzəpir camesinin təmiri üçün 106.770 manat buraxılması haqqındakı təqriri isteması nəticəsində, qanun layihəsinin təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılmaqla, istənilən məbləğin 70 milyonluq fonddan buraxılması qərara alınmışdır.

- Maarif nazirinin teatro vergilərinin ləğvi haqqındakı təqriri isteması nəticəsində, qanun layihəsinin Məclisi-Məbusana idxalı tapşırılmışdır.

- Ədyan nazirinin sabiq Şamaxı qazısı Axund Abbasqulu əfəndinin ailəsinə maaş verilmək haqqındakı təqriri isteması nəticəsində, 70 milyonluq fonddan məzkur [deyilən] axundun ailəsinə birdəfəlik verilmək üçün 8 min manat buraxılması qərara alınmışdır.

- Hərbiyyə nazirinin türküstanlı Turda İsmayıl oğluna müavinət etmək haqqındakı təqriri isteması nəticəsində, 70 milyonluq fonddan 2.500 manat buraxılması qərara alınmışdır.

- Ədliyyə nazirinin, Qazax qəzasının 2-ci dairəsi müstəntiqi Kostatstonun Gəncə nahiyə məhkəməsi tərəfindən müttəhim edilərək baxılan işinin qət edilməsi haqqındakı təqriri isteması nəticəsində, qət edilməsi qərara alınmışdır.

- Ədliyyə nazirinin, sabiq Şuşa müsalihə hakəmi [sülh arbitri] Kubinevin işinin qət edilməsi haqqındakı təqriri isteması nəticəsində işin qət edilməsi qərara alınmışdır.

- Ədliyyə nazirinin, Zaqatal həbsxanası üçün 2.000 arşın bez buraxılması haqqındakı təqriri isteması nəticəsində istənilən bezin buraxılması Ticarət Nəzarətinə tapşırılması qərara alınmışdır.

- Ədliyyə nazirinin, Bakı və qəzaları həbsxanaları üçün bez buraxılması haqqındakı təqriri isteması nəticəsində Ticarət Nəzarətinə 59.000 arşın bez buraxılması qərara alınmışdır.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

**Avropa ilə posta və teleqraf əlaqəsi**

İngilis komissarı Vordrop cənabları Posta və Teleqraf Nəzarətinə müraciətlə, Tiflisdəki Azərbaycan siyasi nümayəndəsi vasitəsilə Avropa ilə posta və teleqraf əlaqəsi peyda etməyi təklif etmişdir. Nəzarət komissarın təklifini təsviblə [bəyənməklə], xəbər vermişdir ki, Gürcüstan ilə hüdud olan Batum ingilislər tərəfindən işğal olunduğu və Gürcüstan ilə də əlaqə tənzim edildikdən sonra məntəqələr təsis edilərək posta və teleqraf əlaqəsinə başlanacaqdır.

- Daxiliyyə Nəzarəti tərəfindən Bələdiyyə İdarəsini polis evləri məsarifatından azad etmək haqqında bir qanun la-yihəsi tərtib edilib, təsvibdən ötrü Vükəla Şurasına təqdim edilmişdir.

- Daxiliyyə Nəzarəti tərəfindən Gəncə qəzasının iki qəzaya təqsim edilməsi [bölünməsi] haqqında vaxtilə tərtib edilmiş qanun layihəsi Vükəla Şurasında təsvib edilərək, təsdiqi üçün Məclisi-Məbusana təqdim edilmişdir.

- Daxiliyyə Nəzarəti cənbində [nəzdində] məhəlli [yerli] şəhər idarəsi və məhəlli qəza zemstvoları şöbəsi təsis edi-[li]b fəaliyyətə başlamışdır.

- Ticarət, Sənaye və Ərzaq Nəzarəti Bakı gömrükxanasına xəbər vermişdir ki, Azərbaycan daxilindən məmaliki-əcnəbiyyəyə [xarici ölkələrə] aparılacaq dəmir 11 düymədən artıq olmamalıdır.

- Bakı qubernatoru Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətlə məlum etmişdir ki, Dağıstandan gəlmiş qaçqınlar Quba qəzasında yerləşdirilmişdirlər. Nəzarət onlara ərzaq və mühimmat vermək haqqında lazımi tədabiri ittixaz etməlidir [tədbirlər görməlidir].

- Maliyyə Nəzarəti bütün xüsusi banklara hesabati-cariyyə açması nağd pul deyil, çek veriləcək gəlirli fəaliyyətdən kəndilərini saxlamağı təklif etmişdir. Əlavə, Nəzarət [təklif etmişdir ki], işbu təşrini-əvvəlin [oktyabrın] 27-dən etibarən Zakaspidən hesabati-cariyyə qəbulu və irsalat [göndərilməsi] işlərindən də çəkilsinlər. İşbu vəsaitlə laj və Zakaspi bonları ilə ehtikarın [möhtəkirliyin] qarşısını almaq istənilir. Maliyyə Nəzarətinin İstiqraz Şöbəsi köhnə hesabatı-cariyyə üzrə bankların pul verməsi üçün lazımi tədabir ittixaz edilməkdədir.

- Vükəla Şurası Maliyyə nazirinin Batumda Maliyyə Nəzarəti nümayəndəliyi təsisini təsdiq etmişdir. Layihə üzrə nümayəndəlik Bakı, Tiflis, Batum arasında irsalat məsələsi [ilə] iştiğal edəcəkdir [məşğul olacaqdır].

- Hal-hazırda Maliyyə Nəzarətinin İstiqraz Şöbəsi Bakı İqtisad Cəmiyyəti və Dövləti Xidmətçilər İttifaqına borc vermək şəraitini hazırlamaqdadır.

**BAKI XƏBƏRLƏRİ**

**Bələdiyyə İdarəsində**

- Bələdiyyə İdarəsi Ticarət və Sənaye və Ərzaq Nəzarətinə müraciətlə, Bakı qəssabxana xidmətçiləri üçün ərzaq və ayaqqabı buraxılmasını rica etmişdir.

- Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Bələdiyyə İdarəsindən yanvar ayından oktyabr ayınadək Bakıda olmuş fayton fiyatları haqqında məlumat istəmişdir.

- Gürcü Nəşri-maarif Cəmiyyətinin Bakı şöbəsi, Bələdiyyə İdarəsinə müraciətlə [rica etmişdir ki], digər cəmiyyətlər

kimi məzkur [deyilən] cəmiyyət məktəbi üçün lazımi miqdarda odun buraxılmaq haqqında lazımi tədabir ittixaz edilsin.

**Bakıda hüdud qarovulu**

Bakıda təsis edilmiş hüdud qarovulu işbu təşrini-əvvəlin [oktyabrın] 18-dən etibarən fəaliyyətə başlamışdır.

**Muğanda qızdırma**

Muğan camaatı nümayəndələri Bakı qubernatoruna teleqrafla xəbər vermişlərdir ki, Muğanda çox şiddətli qızdırma olub, həkim və dava olmadığı üçün onlara müavinət göstərilsin. Binaənileyh [ona görə], Bakı qubernatoru Səhhəti-Ümumiyyə Nəzarətinə işbu teleqrafın surətini göndərərək xahiş etmiş ki, lazımi tədabir ittixaz edilsin və nəticəsi qubernatora məlumat verilsin.

**Dövləti Bankın şöbələri**

Daxiliyyə Nəzarəti Maliyyə Nəzarətinin təklifinə görə Bakı qubernatoruna xəbər vermişdir, 1920-ci ilin zərfində Azərbaycan hökumətinin başqa şəhərlərində də tədricən Dövləti Bank şöbələri açılacaqdır. Bu cəhətdəndir ki, Nəzarət qubernatordan xahiş etmiş ki, təhtiidarəsində [tabeçiliyində] bulunan müəssisə və ictimai müəssisələrdən mükəmməl məlumatlar toplasın ki, məlumatlar vasitəsilə hansı şəhərdə əvvəllərdə şöbə açılması lazım gəldiyi anlaşılsın.

**Hər puddan vergi**

Quba şəhər idarəsi Bakı qubernatorundan rica etmişdi ki, onlara şəhərə daxil və ixrac edilən əmtəənin hər pudundan müəyyən vergi alınsın. Bakı qubernatoru kəndi təsvibi [razılığı] ilə işbu iltिcaatı [xahişi] Daxiliyyə Nəzarətinə təqdim etmişdir.

**Salyanda**

Salyan Bələdiyyə İdarəsi Bakı qubernatoruna müraciətlə rica etmişdir ki, onlara şəhərə idxal və şəhərdən ixrac edilən əmtəənin hər pudundan müəyyən vergi alınmasına icazə verilsin.

**Birjada**

Kerenski minlik 900-1.050 manata qədər, 250-lik kəndi qiymətindən 10 faiz və xırda 20 faiz əskikdir. Nikolay 5 yüzlüyü 850-1.700 manata qədər, yüzlüyü 230-350 manata qədər və xırdası isə 50-80 faizə qədərdir. Türkiyə kağız lirəsi 200 manat, Zaqafqaz bonu min manata 17 manatdır. Türkiyə altun lirəsi 1.000 manat, altun onluq 1.150 manat, imperial 850 manat və Avstriya altunu 2.250 manatdır. Gümüş manat 85 manat və xırda gümüş para 35 manatdır. Susinin topu 1050 manata gedir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

**Cəmiyyəti-Xeyriyyəyə ianələr**

Keçən nömrədən - 5.415 manat.

Hacı Möhsün Məhəmmədəlizadə - 500 manat; Məşhədi Əbdül Şirvani - 140 manat; 6 nəfər - 410; Hacı Məhəmmədəli Əmirəliyev - 150 manat; Məhəmmədbağır Qasımov - 500 manat; Qulaməli - 600 manat; Məsum bəy Məlikov - 300 manat; Ağakərim Hacıməlikov - 200 manat; Məşhədi İsmayıl Hüseynov - 500 manat; Mənsur Xəlilzadə - 300





manat; Muxtar Kərimzadə - 300 manat; Əhməd Hacıyev - 200 manat; Mirzağa Babayev - 500 manat; Səftər Ələkbər oğlu - 200 manat; Əbülhəsən Ələkbərov - 200 manat; İsa bəy - 400 manat; İsrafil - 200 manat; Əkbər - 200 manat; Arin - 200 manat; Hacı Mirismayıl Şirvani, İsmayıl Qaryağdızadə, Əmiraslan Əliəsgərov, Əhməd Xəlilov, Əbdüləziz Rüstəmzadə, Əliəşrəf Xeyrullazadə, Ağa Abdulla Dadaş oğlu, Əliəkbər Murad oğlu, Əbdülxalıq Əliyev, Məşhədi Teymur Abbasquluzadə, Əsədulla Məhəmmədov, Həsən Balaqədirov, Əbülqasım Hüseynzadə, İmran, Məhəmmədbağır Cavad oğlu, Paşa Əliyev, Əziz, Əhəd, Fəttah, Teymur, Şirin Hacı oğlu, Yusif, Baba, Əliabbas, Məşhədi Şirin, Hüseyn Əziz oğlu, Həsən Mirzə Həsən oğlu, Məmi, Hacı, Məşhədiqulu, Hüseynxan, Abutalıb, İman, Məhəmməd, Məşhədi Gülməhəmməd, Məmiş, Qasım, Atabəy, Teymur, Mirzağa, Töhmətxan, Dostəli, Məşhədi Əbdülhüseyn və Baba – hər biri 100 manatdan Cəmiyyəti-Xeyriyyəyə ianə vermişlərdir.

Cümlətanı 15.715 manat (on beş min yeddi yüz on beş manat).

**Yarım milyon manat**

Ağababa Quliyev qəbiristanda şühəda [şəhidlər] şərəfinə və qaçqınlar üçün 500.000 manat Cəmiyyəti-Xeyriyyəyə ianə etmişdir. Bu məbləğin 300.000 manatı Cəmiyyətin sandığına varid [daxil] olub və 200.000 manatı isə bu günlərdə yetişəcəkdir.

**Bülbülədən ianə**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bülbülə şöbəsi Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə qaçqınların nəfinə [xeyrinə] olaraq 1.057 manat ianə toplayıb "Müsavat"ın Bakı Komitəsinə göndərmişlərdir. Komitə bu paranı Cəmiyyətə verib, 3712 nömrəli bir qəbz almışdır.

## AZƏRBAYCANDA

**Salyan edadi məktəbi**

Elmin nasıl əlzəm [lazımlı] və vacib olmağı gün kimi aşkar bir məsələ olduğu üçün heç bir bəyanata ehtiyacı yoxdur.

İştə bizim ziyalılarımız bu məsələni eyicə düşündükləri üçün nə qədər zəhmətlər, nə qədər məşəqqətlər çəkib Salyanda birinci dəfə olaraq edadi məktəbi açmaq fikrinə düşdülər və bu fikirlərini də yürütdülər.

Şimdi tam qaç sənə olar ki, həman edadi məktəbi güşad olunub [açılıb], küçələrdə səfil və sərgərdan dolaşan, ibtidai məktəbini qurtarıb daha qeyri şəhərlərə gedib təhsil etməyə qüvvəsi olmayan islam balalarını kəndi qanadları altına alaraq tərbiyə verməkdədir. Fəqət bir çox şeylər həman məktəbə mümaniət [maneçilik] göstərməkdədir.

Məsələn, necə ki bir evi bina etmək istədikdə ən əvvəl usta çağırıb nə qədər kərpic, taxta və qeyrə lazım olduğunu sorarız, habelə məktəbin də kərpici olan kitablar, ximik və fizik ülumuna [elmlərinə] lazım olan növ-növ maşinalar, mikroskoplar bizim Salyan edadisində yoxdurlar. Pəs kərpicsiz, taxtasız ev bina etmək olarmı sualına qətiyyən "yox"dan qeyri bir cavab ola bilməz. Şimdi isbat olu-

nur ki, məzkur [deyilən] şeylərsiz məktəbdə təhsil etmək nə qədər müşkül olar...

Pəs lazım gəlir ki, həman şeyləri ələ gətirib onlarla dərsə şüru edilsin. Fəqət, təəssüflər olsun ki, bizlərdə o şeyləri qayırmağa bir ədəd olsun belə fabrikamız yoxdur. Bunu demək lazım ki, məzkur ləvazimat xaric vilayətlərdən gətirilməlidir. Şimdi bu zəmanədə həman şeyləri almaq, ələlxüsus tapmaq heç bir vəchlə mümkün deyildir.

Bir neçə gün bundan əqdəm [qabaq] aşağı siniflərdən tutmuş yuxarı siniflərədək hər mütəallim [şagird], qüvvəsi çatdığı qədər para verib bir məbləğ düzəltdilər və müəllimlərdən birini Bakıya göndərib oradan fizikaya və ximiyaya lazım olan şeylərdən bir cüzünü alıb gətirtdilər. Fəqət genə bununla düzəlməz bir işdir. Şimdi buna nə əlac olsun?

İştə, bunun əlacı. Sabiqdə Salyanda ibtidai məktəbdən [başqa] ali məktəb olmadığı hamıya məlumdur. Odur ki, qabaqda şagirdlərə bir azca fizikadan, elmi-nəbatatdan [botanikadan] məlumat vermək üçün həman ibtidai məktəbinin müdiri fizikaya, elmi-nəbatata, heyvanata dair o ləvazimatı mövcud etməyə çox çalışıb, onları mühəyya [hazır] etmişdi. Şimdi isə birinci ibtidai məktəbdə nə fizikadan, nə elmi-nəbatatdan tədris olunur. Amma o şeylərə isə toz qopmadadır...

Əcəba, nə olardı, həman ləvazimati-tədrisiyyə edadi məktəbinə tapşırılaydı ki, onunla bizlər mənfəətbərdar olaydıq və bir də daha o şeylər üçün xərclər olunmaya idi. Keçən il nəbatat dərsimizdə bir mikroskop lazım oldu. Biz isə müəllimə yə söylədik ki, gedib ibtidai məktəbdən alıb gətirək. Müəllimə isə heç bir şey vermək istəməyirlər, söylədi.

Əlavə, söylədiyimiz birinci ibtidai məktəbində nə qədər tədrisə və qiraətə lazım kitablar (əlbəttə, rus dilində) vardır. Pək eyi olardı ki, həman ləvazimati-tədrisiyyə və kitablar edadi məktəbə veriləydi.

*İsmayıl Zərgərli*

## GÜRCÜSTANDA

**General Bref**

İngiltərə heyətinin Dəmiryol şöbəsi rəisi general Bref srağagün Tiflisdən Batuma hərəkət etmişdir. Bu günlərdə müşarünileyh [adı çəkilən şəxs] Batumdan Parisə əzimət edəcəkdir [gedəcəkdir].

**Bolşeviklərin həbsi**

Tkibuli mahal komissarı tərəfindən Tkibulidə olan daş kömür mədənində əmələlər arasında təşviqat və təbliğatda bulunan 7 nəfər bolşevik həbs edilmişlərdir.

**"Mşak" qəzetəsi**

Bir dəstə erməni sərvətdarları "Mşak" qəzetəsinin yenidən davam edilməsi və başqa nəşriyyatda bulunmaq üçün Tiflisdə bir nəşriyyat şirkəti təsis etməkdədirlər.

**İngiltərə bankının müdiri vürudu**

İngiltərənin Batumdakı "Sibuan" adındakı bankının müdiri kapitan Smit Batumdan Tiflisə vürud etmişdir [gəlmişdir].





**Körpü yanması**

Srağagün Tiflisdə naməlum səbəbdən Kür çayı üstündən keçən əvvəlinci meydan körpüsü yanmışdır. Yanğın itfaiyyə [yanğınsöndürən] dəstəsi tərəfindən söndürülmüşdür.

**Mühəndis Qasımbəyovun mərasimi-dəfni**

Yekşənbə [bazar] günü Puşkin caddəsində qətl edilmiş olan mühəndis Xəlil bəy Qasımbəyovun mərasimi-dəfni icra edildi.

Saat 10-dan şəhərin bütün müsəlman hissəsində olan mağazalar bağlanıb, Şah Abbas məscidi tərəfə gəlməyə başlamışlardı. Saat 11-də Şah Abbas məscidinə Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəsi [Faris bəy] Vəkilov başda olmaq üzrə heyət əzası [üzvləri] ilə Gürcüstan Xariciyyə İşlər naziri müavini [Nikolay İotamoviç] Kartsivadze başda olaraq Gürcüstan hökuməti nümayəndələri, Ermənistan nümayəndəsi Yevanqulov və qeyriləri gəlmişlərdi.

Cənazə izdihamla Şah Abbas məscidindən qaldırılaraq müsəlman qəbiristanına aparılmış və orada dəfn edilmişdir. Cənazəni qəbiristanlığa qədər əl üstündə aparmışlardır. Məsciddə Mollazadə cənabları tərəfindən və qəbiristanlıqda mərhumun rüfəqası [dostları] tərəfindən nitqlər söylənmişdir. Gecə bir çox əhali ilə məsciddə fatihəxanlıq olmuşdur.

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*4051*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**İstanbul doktor və bakterioloqu**
**Nazim bəy Hüseynzadə**

Sifilis, terbier, şankr və daxiliyyə naxoşluqları, 914 və 606 müalicələri tətbiq edilir.

Qəbul olunur səhər saat 9-dan 10-adək, axşam saat 6-dan 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 17, doktor Qarabəyovun müalicəxanası. Telefon nömrə: 49-87.

*1470*

**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Diş həkimi A. A. Mirkin**

Dişlərə müalicə olunub və doldurulur. Kauçuk və qızıl üzərində süni dişlər qayırılır. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur: gündüzlər 9-dan 2-yədək; axşamlar 4-dən 7-yədək. Ünvan: Gimnaziçeski küçə, nömrə 164.

*11426*

**Təbib Əmir bəy Aslanov**

Qəbul edir naxoşları (daxiliyyə və cildiyyə) axşam saat 4-dən 6-yadək. Adres: Ofiserski küçədə (Nikolayevski küçənin küncündə) nömrə 6. Telefon 41-14.

*11430*

***Müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh.606. "Heyəti-Vükəla rəisi ilə": qəzetdə belə getmişdir: "Rəisi-Vükəla rəisi ilə".

Revel: İndiki Estoniyanın paytaxtı Tallin şəhərinin köhnə adı.

"Bolşevik qoşunları son dərəcə gözəl təlbis edildikləri kimi, yaxşı ......mişlərdir.": arada bir-iki söz silinmiş, oxunmur.

**Qəzetələrdən**

səh. 608. OSVAQ (Osvedomitelnoye Aqentstvo: Məlumat Agentliyi): Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun və Cənubi Rusiya Silahlı Qüvvələrinin məlumat və propaqanda orqanı olmuşdur.

səh. 609. "Qızıl-Arvad": Türkmənistanda, indiki Sərdar şəhəri.

səh. 610. "Fort-Aleksandrovsk": İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

"Qoben" [Goeben]: Almaniyaya məxsus hərbi gəmi. 1914-cü ildə başqa bir hərbi gəmi ("Breslau") ilə birgə Türkiyəyə verilmişdi. Türkiyə donanmasında "Yavuz" ("Yavuz Sultan Səlim") adıyla xidmət etmişdir. "Qoben" və "Breslau" Türkiyənin Birinci Dünya müharibəsinə girməsində xüsusi rola malik olmuşdur. Qəzetdə "Hoben" kimi yazılmışdır.

**Türkiyədə**

səh. 612. "Əyan": Osmanlı Parlamentinin yuxarı palatası olan Əyan Məclisi (Senat) nəzərdə tutulur.

"qövldən feilə çıxmadı": qəzetdə "qövldən" yerinə "qüvvədən" getmişdir.

**Vəzifə**

səh. 612. "sünnəti-səniyyə": Məhəmməd peyğəmbərin sünnəti, bəyəndiyi və şəxsən özünün etdiyi hərəkət, əməl.

səh. 613. "bir məmur ... saatda vəzifəyə gələcək və ... saatda istirahət edəcək, ... saatda tətil edəcəkdir": qəzetdə belədir.

"cümlə haqqında": qəzetdə "haqqında cümlə" getmişdir.

**Hürufat islahı**
**haqqında bir məktub**

səh. 615. "birinciliyi ehraz eyləməsi": güman ki, arada bəzi sözlər düşmüşdür.

"3 şubat [1]327": burada tarix rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 16 fevral 1912-ci ilə uyğundur. Qəzetdə səhvən "27 şubat 337" kimi getmişdir.

səh. 616. "Göstərilən hürufatın şəkilləri mətbəədə bittəb mövcud olmadığından, dərc edilmədi. Fəqət bu şəkillər, bizcə, olduqca məqul və mötəbərədd oluna bilər.": İslahi-Hüruf Cəmiyyəti Əncüməni-Elmisi tərəfindən qəbul edilən samit və sait hərflər bunlar idi:



"Övqaf Nəzarəti": Osmanlı dövlətində vəqflərin idarəsi ilə məşğul olan nazirlik. Sonradan nazirlik ləğv edilərək, Vəqflər Baş Müdürlüyü təsis edilmişdir.

**Nəzarətlərdə**

səh. 619. "düymə" (yaxud "düym"): 2,54 santimetrə bərabər uzunluq ölçüsü.

"Dağıstandan gəlmiş qaçqınlar": qəzetdə belə getmişdir: "Dağıstana gəlmiş qaçqınlar".

"laj": ajio; pulun yaxud qiymətli kağızların nominal dəyərinə nisbətən kursunun artması.

**Bakı xəbərləri**

səh. 620. "susinin": bu sözə məna vermək mümkün olmadı.

**Azərbaycanda**

səh. 621. "edadi məktəbi": tədrisdə ali təhsildən əvvəlki mərhələ; lisey.





**Cümə, 31 oktyabr 1919-cu il, nömrə 310**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 6 səfərül-müzəffər sənə 1338. 31 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**ELAN**
**Kompaniya "Azərbaycan"**
**Komissioner həmlü nəqli-İran**
**[İran yükdaşıma komissioneri]**

Batumda yeni güşad edilən [açılan] kompaniyamız əmvali-ticariyyə [ticarət malları] alır və satır; hər növ əşyanın idxal və ixrac müamilatını dəröhdə edir [əməliyyatlarını öhdəsinə götürür]. Müraciət edəcək müştərilərə böyük təshilat [köməklik] göstərir.

Adres: Batum, Naberejni, nömrə 12. Telefon 109.

Kompaniya "Azərbaycan".

*11489*

**DÖVLƏT TEATROSU**
**Azərbaycan Dövləti Teatro heyəti**

Cümə günü təşrini-əvvəlin
(oktyabrın) 31-ndə axşam
Dövlət Teatrosunda
mövqeyi-tamaşaya qoyulacaqdır
**"Əbülüla"**
Həsən Bədrəddin və Rifatın əsəri
faciə, 5 pərdədə
Tamaşa başlanacaq axşam
saat 8 tamamda.
Biletler teatrın kassasında
satılmaqdadır.
Rejissor: A. A. İvanov.
Müavini-rejissor: Hacıbaba Şərifov.
Gələcək tamaşa səşənbə günü
təşrini-saninin (noyabrın) 4-ndə
"Yezin ibn Müaviyə".
Mövqeyi-tamaşaya
qoyulmaq üçün hazırlanır:
"Trablis müharibəsi", "Dövləti-bisəmər" və "Qəzavat".
Dövləti Teatro heyəti vəkili:
M[əhəmməd] Ə[li] Sidqi.

*T-310*

* * *

Aşağıda zikr olunan qəzetələrin nəşriyyatı həmin noyabr ayının 1-dən qəzetə nüsxəsinin 3 rubləyə qədər artırılmasına məcbur olmuşlar: "Azərbaycan", "Qolos Rossii", "Bakinets", "Bakinskoye slovo" və "Russki den".

* * *

**BAKI**
**OBŞESTVENNI SOBRANİYANIN**
**BÖYÜKLƏR ŞURASI**

Dəvət edir üzvləri və namizədləri öz üzvlük qəbzlərini 1919-1920-ci il üçün təzələşdirməyə. Ustavın 9 və 19-cu maddələrinə görə, qəbzlərin təzə olunması həmin noyabr ayının 3-nədək olacaqdır.

*T-291*